Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7-9 SENTYABR 2019-cu il

№ 158 (4056)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN KABUSU - PUTİN OKTYABRIN 1-DƏ İRƏVAN HƏBSXANASINDA KOÇƏRYANLA GÖRÜŞMƏK İSTƏSƏ...

■ səh. 8 ■

ABŞ və Rusiya Ermənistana təzyiq üsulu kimi Qarabağ kartını işə saldı... ■ səh. 9 ■

Paşinyanın ABŞ-dakı ən güclü təbliğatçısı "pedofil" çıxdı ■ səh. 5 ■

Dünya İqtisadi Forumunun yeni rəqəmləri - turist cəlb etmək qabiliyyətinə görə Azərbaycan bir sıra ölkələri qabaqlayır ■ səh. 10 ■

ADA-nın tələbələri artır - 12 yeni ölkədən bu il tələbələr qəbul edilib ■ səh. 7 ■

Şəhid zabit ailəsi Ayna Hacıyevanı Bakıxanovda yaşadığı mənzildən çıxarmaq istəyənlər məhkəmə davası açdılar ■ səh. 11 ■

90-cı illərdən evlərin künc-bucağında qalmış ziyanlı dini ədəbiyyatları necə üzə çıxarmalı... ■ səh. 13 ■

Sumqayıtda Qarabağ atına ilk heykəl - heykəlin hansı qeyri-adi xüsusiyyətləri olacaq... ■ səh. 15 ■

Yaxınlıqdakı ağac və yaşıllıqların məhv olmasına laqeyd qalan böyük obyekt sahiblərinin adı rəsmən çəkiləcək ■ səh. 13 ■



## Ərəb dünyası və Cənub-Şərqi Asiya nəhənglərinin diqqəti Azərbaycana yönəlir...

■ səh. 6 ■





BMT-nin 74-cü sessiyasından Azərbaycanın ərazi bütövlüyünə mühüm dəstək... ■ səh. 3 ■

MM-in konstruktiv müxalifət və hakimiyyətyönlü partiyalarının radikal ekstremist siyasi davranışlara reaksiyasızlığı... ■ səh. 4 ■

Çöhrəqanlı Azərbaycana münasibətdə getdikcə əndazəni aşır..., əslində, özü də "xarab olub gedir"... ■ səh. 5 ■

■ səh. 10 ■ KIV-in reklam gəlirlərinin üç dəfə azalma səbəbləri nədir...



■ səh. 4 ■ Paşinyanın puç olan daha bir vədi - Ermənistan əhalisi qısa müddətdə 8500 nəfər azalıb...



■ səh. 11 ■ Bakı polisinin əxlaqsızlıq yuvaları ilə mübarizəsinə ictimaiyyət və QHT-lər necə dəstək verir?



■ səh. 7 ■ Müştərilərin bank kredit kartlarından istifadəsi zəifləyib



■ səh. 14 ■ Məktəb bufetləri ərzaqla necə təmin olunur, bufetlərə təsadüfi ərzaqların düşmək imkanı varmı?



## Azərbaycan Prezidenti Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanlarının Konfransına nə yazdı?

**Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclasının iştirakçılarına müraciət ünvanlayıb.**

Prezident bildirib ki, Azərbaycan Respublikası beynəlxalq təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. "Müasir dünyada sülhə və sabitliyə yeni, daha təhlükəli təhdidlər yaranmaqdadır. Bu təhdidlərin vaxtında aşkarlanaraq qarşısının alınması bütün dövlətlərin milli maraqları və davamlı inkişafı baxımından son dərəcə vacibdir. Regional, hətta qlobal xarakterli təhlükələrin dəf edilməsi üçün dünya dövlətlərinin fəaliyyətinin əlaqələndirilməsi zəruridir.

Qardaş türkdilli dövlətlərlə əlaqələrin möhkəmlənməsi Azərbaycan üçün xüsusi önəm daşıyır. Müxtəlif formatlarda həyata keçirilən əməkdaşlığımız qarşıda duran bir çox məsələlərin həlli, o cümlədən, regional təhlükəsizliyin təmin edilməsi, ekstremizm, terrorçuluq və separatçılıq, qeyri-qanuni miqrasiya, narkotik maddələrin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkar qrupların fəaliyyətinin qarşısının alınması istiqamətində səylərimizin birləşməsinə yönəlmişdir.

Dövlətlərimizin üzləşdiyi risq və təhdidlərlə mübarizədə xüsusi xidmət orqanları müstəsna rol oynayır. Bu mənada, Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanlarının Konfransı ölkələrimizin təhlükəsizliyinin təmin edilməsi sahəsindəki fəaliyyətimizi əlaqələndirməyə və XXI əsrin çağırışlarına birlikdə cavab tapmağa imkan verən səmərəli vasitələrdən biridir.

Əminəm ki, bu iclas tərəfdaş qurumlar arasında təcrübə mübadiləsi və analitik-informasiya dəstəyi üçün əlverişli şərait yaradacaq və bununla da beynəlxalq təhlükəsizliyin təmin edilməsinə töhfə verəcək".

## Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı kommunikasiyanın ilin sonunadək yekunlaşması gözlənir

**Hazırda Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsində (AİHM) kommunikasiya davam edir. Kommunikasiyanın bu ilin sonunadək yekunlaşması gözlənir. Bunu özəl olaraq "Trend"ə Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov deyib.**



A.Bağırov bildirib ki, dövlət başçısının tapşırığına uyğun olaraq, bu istiqamətdə bütün zəruri tədbirlər görülməkdədir. Kollegiya sədrinin sözlərinə görə, bu ilin sonunadək kommunikasiyanın yekunlaşdırılacağı gözlənir və qısa vaxt ərzində işə baxılacaq: "Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı şikayət ərizəsi hazırlanıb və 15.05.2015-ci il tarixdə Avropa İnsan Hüquqları Məhkəməsinə göndərilib. 10.06.2015-ci il tarixdə Avropa Məhkəməsi tərəfindən ərizənin icraata qəbul olunması haqqında məktub alınıb və yazışmalara başlanıb".

Qeyd edək ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D.Əsgərov və Ş.Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin "qərarı" ilə D.Əsgərov ömürlük, Ş.Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

# Prezident İlham Əliyev türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib

**Prezident İlham Əliyev sentyabrın 6-da türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib.**



Dövlət başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğuladı. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirdi. Dövlətimizin başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdilər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğuladılar.

# Azərbaycan XİN tanınmayan "DQR"də qondarma «8 sentyabr seçkiləri»ni hüquqi əsası olmayan şou hesab etdi...

***Leyla Abdullayeva:* "Dağlıq Qarabağda keçiriləcək qondarma "seçkilər" beynəlxalq ictimaiyyət tərəfindən tanınmır və tanınmayacaq"**

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Ermənistan mətbuatında bu ilin 8 sentyabr tarixində Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "yerli özünüidarəetmə seçkilərinin" keçiriləcəyi ilə bağlı yayılan məlumatlara münasibət açıqlayıb.**



Baki-xeber.com-un məlumatına görə, XİN-in mətbuat katibi Leyla Abdullayeva bildirib ki, Ermənistan kütləvi informasiya vasitələrinə əsasən, ölkəmizin işğal olunmuş ərazilərində "seçkilər" donu ilə təqdim edilən növbəti şounun təşkili nəzərdə tutulur: "Hər kəsə çox yaxşı bəlli olan bir reallıq var; hərbi təcavüz, işğal, etnik təmizləmə, qanunsuz əməllər halında hansı "seçki"dən danışırsansa danış, nə bu hazırlanan tamaşa, nə də onun nəticələri beynəlxalq ictimaiyyət tərəfindən tanınmır və tanınmayacaq. Ölkəmizin işğal olunmuş torpaqlarında işğalçı ölkə Ermənistan tərəfindən yaradılmış oyuncaq rejimlə də bağlı bu eynilə belədir.

Xatırladıram, bu günə kimi keçirilmiş dırnaqarası seçkilərlə bağlı beynəlxalq ictimaiyyət, o cümlədən, həmsədr ölkələri bu qanunsuz əməlləri və onların nəticələrini tanımadıqlarını birmənalı şəkildə qeyd ediblər. Ermənistan tərəfinin müxtəlif ölkələrdə erməni diaspor təşkilatları və lobbist qruplarının dəstəyi ilə təşkil olunan tədbirlərdə ölkəmizin Dağlıq Qarabağ bölgəsindəki oyuncaq rejimi təbliğ etmək səylərinə, təşkil edilən qanunsuz səfərlərə, təxribat xarakterli əməllərinə rəğmən, həqiqət birdir və dəyişilməzdir. Bu həqiqətin nədən ibarət olduğunu konkret misallara istinadən qeyd edim.

Avstraliya timsalında, bu yaxınlarda Avstraliyaya qanunsuz qondarma rejimin agentlərinin səfəri təşkil olundu və bu sanki qondarma rejimin "tanınması" kimi qələmə verməyə çalışıldı. Avstraliya federal hökumətinin Azərbaycanın ərazi bütövlüyünə dəstəyi əlbəttə bəllidir, eyni zamanda, bu son hadisələrdən sonra Avstraliya XİN-i rəsmi internet səhifəsində Azərbaycanın ərazi bütövlüyünün bu ölkə tərəfindən dəstəkləndiyini və Dağlıq Qarabağın "müstəqil dövlət" kimi tanınmadığını bəyan etdi.

**Başqa bir misal, Almaniya XİN-i erməni mətbuatında guya ki, qondarma rejimin Almaniyadakı torpaq seçkilərində müşahidəçi qismində iştirakına dair məlumata cavab olaraq yazılanların əsassız olduğunu səfirliyimizə bildirmiş və Almaniyanın nə Dağlıq Qarabağı, nə də orada keçirilən "seçkiləri" tanımadığını vurğulayıb.**

Bu kimi daha çox misalı qeyd edə bilərəm. Bir sözlə, həqiqət ondan ibarətdir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu, bütün beynəlxalq sənədlərdə öz əksini tapır".

# Rusiya sərhədində ABŞ-ın gizli bazası ortaya çıxdı

**NATO üzvü Estoniya sərhədində ABŞ xüsusi təyinatlılarına aid gizli bir hərbi baza olduğu iddia edilir. Baki-xeber.com xəbər verir ki, Rusiya mediasına görə, Rusiya sərhədində gizli baza 2014-cü ildə qurulub.**

Altı ay davam edən araşdırmalardan sonra Rusiyanın ERR kanalının jurnalistləri gizli hərbi bazaya daxil ola biliblər.

Rusiya sərhədindəki baza Pentaqon sənədlərində Estoniyaya xüsusi bir bölmənin ehtiyacılarını qarşılamaq üçün 15 milyon dollar yardım təyin edildiyi bölgənin müəyyənləşdirilməsindən sonra ortaya çıxıb.

**NATO "Rusiyanın genişlənməsini dayandırmaq" strategiyası çərçivəsində 2016-cı ildə Polşa və Baltikyanı ölkələrdə əlavə qoşun yerləşdirmişdi.**

# BMT-nin 74-cü sessiyasından Azərbaycanın ərazi bütövlüyünə mühüm dəstək...

**"Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" və "GUAM məkanında dondurulmuş münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün fəsadları" adlı qətnamə layihələri BMT Baş Assambleyasının 74-cü sessiyasının ilkin gündəliyinə daxil edilib. Qeyd edək ki, bu qətnamə layihələri assambleyanın əvvəlki sessiyası zamanı müzakirə olunmadığından, növbəti toplantının gündəliyinə müvafiq olaraq 38 və 32-ci bəndlər altında salınıb.**

Sessiyanın gündəliyində, ümumilikdə, 172 bənd, o cümlədən, sülh və təhlükəsizlik, silahsızlaşdırma, Afrikanın inkişafı, narkotiklərin qanunsuz yayılmasının qarşısının alınması, beynəlxalq terrorçuluğa qarşı mübarizə və s. məsələlər var.

BMT Baş Assambleyasının 74-cü sessiyasının rəsmi açılışı sentyabrın 17-də Nyu-Yorkda keçiriləcək. Ənənəvi ümumi müzakirələr sentyabrın 24-dən 30-dək baş tutacaq.

Qeyd edək ki, Baş Assambleya BMT-nin əsas müşavirə orqanıdır. Onun tərkibinə bir səsə malik hər bir iştirakçı dövlətin nümayəndəsi daxildir. Sülh və təhlükəsizlik və ya yeni üzvlərin qəbul olunması kimi mühüm məsələlərə dair qərarlar 2/3 səs çoxluğu ilə, digər məsələlər üzrə qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər il sentyabr ayından dekabra qədər assambleya sessiyası fasiləsiz işləyir. Sonrakı dövrlərdə qurum ehtiyac duyulduğu təqdirdə iclaslarını keçirir.

"Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə layihəsinin BMT Baş Assambleyasının 74-cü sessiyasının ilkin gündəliyinə daxil edilməsinin nə kimi əhəmiyyəti var?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, BMT Baş Assambleyasının 74-cü sessiyasının ilkin gündəliyinə daxil edilən məsələlərin müzakirəsi bizim üçün əhəmiyyətlidir: "Azərbaycanın işğal olunmuş ərazilərində və ümumilikdə, GUAM məkanında mövcud dondurulmuş münaqişələrin beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün fəsadları haqqında istər ölkəmizdə, istərsə də münaqişəyə cəlb olunmuş digər GUAM ölkələrində daxili auditoriyada geniş müzakirələr gedib.

Lakin indi BMT Baş Assambleyası səviyyəsində təşkilatın 74-cü sessiyasında bu müzakirələrin aparılması və baş tutacağı halda gəlinən qənaətlər, nəticələr lokal, regional xarakterli deyil, qlobal səviyyədə təhlükəsizliyə, sülh və dayanıqlı inkişafa, qitələrarası ticarət və nəqliyyat xətlərinin inkşafına töhfə verəcək bir təşəbbüs olacaq.

Uzağa getmədən, konkret olaraq, Dağlıq Qarabağ konfliktinin regional və qlobal təhlükəsizliyə hədələri haqqında danışaq. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktı təkcə regionun deyil, Avropa Birliyi və qlobal təhlükəsizlik üçün qısamüddətli və uzunmüddətli hesabda geniş təhdidlər yaradır və biz bu haqda geniş danışmışıq.

Dağlıq Qarabağ konfliktinin regionun nəqliyyat-kommunikasiya imkanlarını limitləməsi ilə paralel, Ermənistanın işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin strateji Cənubi Qafqaz regionunda qlobal təhlükəsizliyə hansı səviyyədə təhdid olması haqqında rəyləri isə həm bizim, həm də son illər dünyadakı qlobal təhlükəsizlik və strateji araşdırmalar mərkəzlərinin hesabatlarında yer alıb. Sırf 2019-cu il ərzində bir neçə təhlükəsizlik və strateji araşdırmalar mərkəzinin bu istiqamətdə hesabatlarını, britaniyalı araşdırmaçı Harold Keynin nəşr etdirdiyi "Narko Qarabağ" ("Narco Karabakh") kitabının dərcini, DQ-dəki qanunsuz rejimin Ermənistan dövlətinin dəstəyilə mövcud olan və Yaxın Şərqdən Avropa Birliyinə qədər uzanmış olan narkotik, silah və insan alveri şəbəkəsinin ifşası, ekoloji layihələr adı altında Dağlıq Qarabağ bölgəsinin təbii sərvətlərinin talan edilməsi və s. xatırlatmaq yerinə düşür.

Ən əsası isə Ermənistanın bu cinayətkar şəbəkənin fəaliyyətini gizlətmək üçün apardığı manipulyasiyaları qlobal təhlükəsizlik üçün, AB-nin təhlükəsizlik mühitinə və onun enerji təchizatı marşrutlarına basdırılmış mina rolunu oynayır. Bu baxımdan da yaranmış real vəziyyətin məhz BMT tribunasından səslənməsi müstəsna əhəmiyyətə malikdir".



Ekspertin sözlərinə görə, istər Azərbaycanın işğal olunmuş real ərazilərində, istər GUAM ölkələrindəki dondurulmuş konfliktlərin həlli cəhdi BMT-nin bu regionlara yönəlik siyasətində prioritet mövzulardır: "Bu regionlarda dayanıqlı sülhün bərqərar olması üçün BMT və digər beynəlxalq təşkilatlar, Dağlıq Qarabağ konflikti də daxil, GUAM dövlətləri ərazilərindəki konfliktlərin həllində alət ola biləcək cari və rezerv imkanların tətbiqində maraqlıdırlar və BMT Baş Assambleyasının 74-cü sessiyasında bu mövzuların müzakirəsi qurumun məqsədinin nümayişidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Hikmət Hacıyev: "Azərbaycan heç bir dairəyə özünün daxili işlərinə qarışmağa imkan vermir"



**Azərbaycan Respublikasının Gənclər Fondunun elan etdiyi "Xaricdə magistr təhsilinin maliyyələşdirilməsi" müsabiqəsinin qalibləri Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.**

Gənclər Fondundan "Trend"ə verilən məlumata görə, qurumun icraçı direktoru Fərid Cəfərovun iştirakı ilə keçirilən görüş zamanı ölkəmizin xarici siyasəti, turizm, nəqliyyat, ticarət sahəsində yürütdüyü siyasətlə bağlı gənclərin suallarını cavablandıran Hikmət Hacıyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası dövlət quruculuğunun bütün istiqamətlərində, o cümlədən, xarici siyasət sahəsində ciddi uğurlara imza atıb:

"Azərbaycan Respublikası, sözün əsl mənasında, müstəqil xarici siyasət yürüdən ölkədir. Bu müstəqil siyasətin əsasını Azərbaycanın milli maraqları və ölkə vətəndaşlarının mənafeyinin qorunması təşkil edir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu strategiya tarixi təcrübəni, geosiyasi reallıqları nəzərə alaraq, çoxistiqamətli və tarazlaşdırılmış əsasda praqmatik və realist prinsiplərlə həyata keçirilir".

**H.Hacıyev əlavə edib ki, gərgin və nizamsız beynəlxalq münasibətlər şəraitində ölkəmiz beynəlxalq hüququn norma və prinsipləri əsasında xarici siyasət yürüdərək, heç bir dövlətin daxili işlərinə qarışmır və heç bir dairəyə özünün də daxili işlərinə qarışmağa imkan vermir.**



## Siyavuş Novruzov müxalifəti qan verməyə çağırdı

*"Nə ağac əkirsiniz, nə qan verirsiniz..."*

**Məhərrəmlikdə insanlar özlərinə zəncir vurmaqdansa, qanvermə aksiyasında iştirak etsələr, daha yaxşı olar. "Trend"in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov jutrnalistlərə deyib.**

S.Novruzov bi?dirib ki, bəzi insanlar müəyyən xəstəliklərdən əziyyət çəkdiyi üçün qana ehtiyac duyur: "Qan verməklə biz o insanlara kömək etmiş olarıq. Hakim Yeni Azərbaycan Partiyası hər il belə aksiyalar keçirir".

Millət vəkili insanları Aşura günündə məscidlərdə qan verməyə səsləyib: "Özünü döymək, baş yarmaq hallarına yol verməsinlər".

S.Novruzov müxalifəti də bu cür aksiyalarda iştirak etməyə dəvət edib. O bildirib ki, müxalifət nə ağac əkir, nə qan verir: **"Onların addımları ancaq söyüş və təhqirdən ibarətdir. Mən həmin siyasi təşkilatları da qanvermə aksiyasında iştirak etməyə dəvət edirəm. Gəlsinlər, qan versinlər".**

Azərbaycan parlamentinin yekcins siyasi qüvvədən təşkil edilmədiyi məlumdur. Yəni ölkənin qanunverici orqanında çoxluğu hakim partiya qazansa da, bitərəflər və başqa partiyaların təmsilçiləri də az deyil. Parlamentdə YAP-dan kənar olan siyasi partiyalar ya iqtidaryönlüdür, ya da hakimiyyətə qarşı konstruktiv müxalif mövqedə dayanırlar.

# MM-in konstruktiv müxalifət və hakimiyyətyönlü partiyalarının radikal ekstremist siyasi davranışlara reaksiyasızlığı...

## Elşən Həsənov: "Bəyəm partiya kimi özlərini təqdim edən qurumların heç sıravi üzvləri də yoxdur ki, çıxıb sosial şəbəkələrdə aktivlik etsinlər?"

Yeni Azərbaycan Partiyası istisna olmaqla parlamentdə 11 siyasi partiya var. Onların təsnifatlandırılması aşağıdakı kimidir:

***1. Vətəndaş Həmrəyliyi Partiyası (2 deputat - Fəzail İbrahimli, Rafael Hüseynov)***

***2. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - (sədr Qüdrət Həsənquliyev, 1 deputat)***

***3. Demokratik İslahatlar Partiyası - (sədr Asim Mollazadə, 1 deputat)***

***4. Böyük Qurtuluş Partiyası - (sədr Fazil Mustafa, 1 deputat)***

***5. Milli Dirçəliş Hərəkatı Partiyası - (sədr Fərəc Quliyev, 1 deputat)***

***6. Ana Vətən Partiyası - (sədr Fəzail Ağamalı, 1 deputat)***

***7. Vətəndaş Birliyi Partiyası - (sədr Sabir Hacıyev, 1 deputat)***

***8. Azərbaycan Sosial Rifah Partiyası - (sədr Xanhüseyn Kazımlı, 1 deputat)***

***9. Vəhdət Partiyası - (sədr Tahir Kərimli, 1 deputat)***

***10. Azərbaycan Demokratik Maarifçilik Partiyası - (sədr Elşən Musayev, 1 deputat)***

***11. Azərbaycan Sosial Demokrat Partiyası - (sədr Araz Əlizadə, 1 deputat).***

Ancaq maraqlıdır ki, adıçəkilən partiyaların siyasi qurum kimi köklü məsələlərlə bağlı fəaliyyətlərini müşahidə etmirik. Ola bilər ki, adları çəkilən partiyaların sədrləri hansısa sayta açıqlama verirlər. Bu, başqa məsələ. Xüsusilə də xaricdən Azərbaycana yönəldilən radikal, ekstremist cərəyanlar, ən əsası da söyüşçül mühacirlərlə bağlı siyasi partiya kimi onların mövqeyinə rast gəlmirik. Parlament təmsilçisi olan iqtidaryönlü və konstruktiv müxalifət partiyalarının ciddi mövzularla bağlı siyasi qurum kimi ortaya qoyduqları reaksiyasızlığın səbəbi nə ilə izah edilə bilər?

Qərara gəldik ki, bu məsələyə həmin partiyaların özündən münasibət öyrənməyək. Çünki, təbii ki, heç bir partiya öz fəaliyyətinə tənqidi yanaşma ortaya qoymayacaq. Parlamentdən kənar olan Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, parlamentdə təmsil olunan partiyalar həm də dövlətin hesabına maliyyələşirlər: "Biz belə maliyyələşmədən məhrumuq. Maliyyə problemi altında fəaliyyət göstərmək çox çətindir. Parlamentdə partiyalara ayrılan pul onların aparatını saxlamağa, qərargah tutmağa, hətta bəzi rayon təşkilatlarına əməkhaqqı verməyə kifayət edir. Bunun müqabilində ortada normal fəaliyyət olmalıdır. Açığını deyim ki, həmin partiyalardan ələləri var ki, heç səsi çıxmır. Konkret məsələ ilə bağlı demirəm, ümumiyyətlə, səsi çıxmır. Sizi inandırım ki, bəlkə



də partiyanın sədrini heç jurnalistlər də tanımırlar. Ələləri var ki, sədrləri parlamentdə ancaq özlərini narahat edən sosial problemləri qabardırlar. Bəziləri isə ancaq əməkhaqlarının qaldırılmasını tələb edirlər. Ancaq yaddan çıxarırlar ki, onlar institutlaşmış bir təsisatı təmsil edirlər. Niyə partiya kimi ortaya mövqe qoymurlar? Bəs onların partiya olmaqlarını biz nədən bilək? Çoxlarının heç sosial şəbəkələrdə hesabı yoxdur. Olanların oradakı yüngül fəallığı da məsələni həll etmir. Ölkəyə qarşı yağdırılan söyüş kampaniyası ilə bağlı biz həmin partiyaların yığışıb bir qərar verdiyini görmədik. Hansısa edibsə də, mən görməmişəm. Hesab edirəm ki, yeni parlamentdə belə qüvvələrin təmsilçiliyi çətin mümkün olacaq. Bir partiya kimi rəğbət əldə etməyən siyasi qüvvəyə heç az da olsa səs verən tapılmayacaq. Hər halda, həmin siyasi partiyalar bir özlərini silkələyib, fərddən ibarət bir qurum olmadığını dərk etməli, siyasi institut kimi mövqe ortaya qoymalıdırlar. Ölkəmizə yönəlik radikal, ekstremist çağırışlara cavab verməlidirlər. Bəyəm partiya kimi özlərini təqdim edən qurumların heç sıravi üzvləri də yoxdur ki, çıxıb sosial şəbəkələrdə aktivlik etsinlər? Yəni biz bunların heç birini görmürüksə, deməli, parlamentdəki iqtidaryönlü və konstruktiv təsisatların fəaliyyətini bəyənə bilmərik".

*Məhəmmədəli QƏRİBLİ*

Nikol Paşinyan Ermənistanda Baş nazir olanda bir sıra gurultulu vədlərlə çıxış etdi. Populizm üzərində qurulan bu vədlər reallığa söykənmirdi. Çox keçmədi ki, verilən vədlərin reallıqla uzlaşmadığı ortaya çıxdı. Paşinyanın verdiyi vədlərdən biri də ölkədə demoqrafik göstəricilərin yaxşılaşması ilə bağlı idi. Bəyan etdi ki, ölkə əhalisinin azalması tendensiyası dayanacaq. Hətta bu ilin əvvəllərində qeyd etdi ki, artıq ölkədə əhalinin sayının azalması dayanıb, artıma doğru meyl var. Ancaq son statistik rəqəmlər fərqli mənzərini ortaya qoydu.

# Paşinyanın puç olan daha bir vədi - Ermənistan əhalisi qısa müddətdə 8500 nəfər azalıb...

## Məhəmməd Əsədullazadə: "Ermənistanda demoqrafik göstəricilərin yaxın perspektivdə yaxşılaşacağı real görünmür"



Məlum oldu ki, Ermənistanda Paşinyanın irəli sürülən iddiaları həyata keçirmək üçün heç bir resurs mövcud deyil. Sovetlər dağılandan sonra bu ölkənin əhalisi 3 milyon nəfərə çatmayıb. İllik doğulanlarla ölənlərin fərqini nəzərə alsaq, 30 ildə bu ölkədə əhalinin artımı 300 mindən çox olmayacaq. Rəsmi məlumatlara əsasən, Ermənistanda ildə 38-39 min nəfər doğulur. Hər min nəfərə düşən ölənlərin sayı isə 28-30 min nəfər təşkil edir. Belə çıxır, Ermənistan əhalisinin sayı ildə 10 min nəfər artacaq, 30 ildə isə bu rəqəm 300 min nəfər təşkil edəcək. BMT-nin hesablamasına görə, 2050-ci ildə ən pis halda 2 milyon 573, orta vəziyyətdə 2 miyon 816, ən yaxşı halda isə 3 milyon 65 min nəfər, 2100-cü ildə isə ən pis halda 1 milyon 207 min, orta vəziyyətdə 2 milyon 39 min, ən yaxşı halda isə 3 milyon 175 min nəfərə çata bilər.

Ermənistan Statistika Komitəsinin məlumatında bildirilib ki, bu ilin son 6 ayında ölkə əhalisinin sayı 3500 nəfər azalıb. Məlumata görə, cari ilin iyun ayında ölkə əhalisinin sayı 2 milyon 961 min 600 nəfər olub. Ötən ilin uyğun dövrü ilə müqayisədə ölkə əhalisinin sayı 8500 nəfər azalıb. Əsasən vilayətlərin şəhər və kəndlərinin daimi əhalisinin sayında azalma müşahidə edilib. Məlumata görə, cari ilin ilk 6 ayında yeni doğulanların sayı da azalaraq 16 min 111 nəfər olub. Ötən ilin uyğun dövründə bu rəqəm 16 min 261 nəfər, 2017-ci ildə isə 17 min 171 nəfər təşkil edib. Göründüyü kimi, Paşinyanın növbəti vədi özünü doğrultmayaraq puç oldu.

*"Məhz əhali boş vədləri gördükdən sonra yenidən xaricə üz tutmağa başlayıb"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Ermənistanda demoqrafik göstəricilərin yaxın perspektivdə yaxşılaşacağı real görünmür: "Ermənistan Baş naziri Nikol Papşinyanın iqtisadi və sosial islahatlar vədi bir ildən artıqdır reallaşmır. Ona görə ki, Ermənistanın iqtisadiyyatı praktiki olaraq yoxdur. Paşinyan ümid edirdi ki, Qərbdən alacağı kreditlər vasitəsilə müəyyən sosial islahatlar həyata keçirəcək. Bununla da ölkədən miqrasiyaya son qoyacaq, amma onun hesablamaları özünü doğrultmadı. Məlum olduğu kimi, Ermənistan hazırkı şərtlər daxilində öz iqtisadiyyatını dirçəltmək gücündə deyil. Ölkədə o qədər ciddi problemlər var ki, Paşinyan gözləmədiyi durumla qarşılaşıb. Məhz əhali boş vədləri gördükdən sonra yenidən xaricə üz tutmağa başlayıb. Hesab edirəm ki, bundan sonra da ölkədə Paşinyanın heç bir sosial və demoqrafik siyasəti uğurlu olmayacaq. Ölkə əhalisi yalan vədləri gördükcə iş və çörək dalınca xaricə üz tutacaq. Ümumiyyətlə, Paşinyan realist və praqmatik deyil. Ermənistan kimi blokada şəraitində və heç bir təbii sərvəti olmayan ölkəni inkişaf etdirmək çağırışları yalnız manipulyasiyadır. Hesab edirəm ki, bu durumda Paşinyanın hakimiyyəti uzun çəkməyəcək. Erməni xalqı yenidən ayağa qalxacaq. O üzdən, ölkədə etirazlara səbəb olacaq proseslərin başlanmasını istisna etmirəm. Çünki boş vədlər və reallaşmayan siyasi-iqtisadi islahatlar fonunda Paşinyanın erməni ictimaiyyətində reytinqi düşməkdədir. Ən yaxşı halda, o, sələfləri kimi güc yolu ilə hakimiyyətini saxlamağa çalışacaq. Ancaq erməni xalqı mütləq şəkildə Paşinyandan hesab soracaq".

*Vidadi ORDAHALLI*

# Çöhrəqanlı Azərbaycana münasibətdə getdikcə əndazəni aşır..., əslində, özü də "xarab olub gedir"...

**Son vaxtlar hamımızın Cənubi Azərbaycandakı milli azadlıq hərəkatının lideri kimi tanıdığımız Mahmudəli Çöhrəqanlının addımları və davranışlarında qəribə halın müşahidə edildiyini görürük. Əvvəl böyük ümidlər bəslənən bu adam hazırda xaricdən yayımlanan və Azərbaycanın bütün simvollarını söyüşlə təhqir edən Qurban Məmmədovun internet televiziyasının ekspertinə çevrilib.**

Ən maraqlısı budur ki, Qurban Məmmədov Çöhrəqanlı boyda kişidən əsl söyüş və təhqir makinası düzəltməyi bacarıb.

Bundan əvvəlki yazılarımızdan birində Çöhrəqanlının mərhum prezident Heydər Əliyev barədə işlətdiyi nalayiq ifadələr barədə yazmışdıq. Həmin yazıda Çöhrəqanlının adına-sanına yaraşmayan söyüşcül radikallarla eynilik təşkil edən mövqeyi kəskin tənqid edilmişdi. Çöhrəqanlının gələcək davranışları isə göstərir ki, o həm də müxalif düşüncəli insanlara qarşı da aqressivdir və onları da təhqir etməkdən çəkinmir.

Xalq şairi Sabir Rüstəmxanlı özünün sosial şəbəkədəki hesabında Çöhrəqanlının ona qarşı olan davranışı barədə maraqlı yazı paylaşıb. Sabir bəyin yazısından belə başa düşülür ki, cənublu siyasətçi onun da bostanına daş atıb. Sitat: "Çöhrəqanlının Quzey Azərbaycanla və milletimizin taleyi ilə bağlı arzu və istəklərini təbii qəbul etsəm də, onun yaşına-başına yaraşmayan söyüş üslubu qəbuledilən deyil. Çünki ondan soruşarlar ki, sən Güney Azərbaycanımız üçün nə etmisən ki, məni Quzey Azərbaycanda xalq üçün çalışmamaqda ittiham edirsən? Mən sənin kimi irticadan qorxub xaricə qaçmamışam, 1988-ci ildən mübarizə meydanındayam və bütün başqa ədəbi, ictimai-siyasi fəaliyyətimi bir kənara qoyub, təkcə ölkəmin Müstəqillik Aktına qol çəkdiyimi xatırlatsam, bu, sənin mənə dil uzatmağının nə qədər gülünc bir iş olduğunu sübut etməyə yetər...".

Sabir Rüstəmxanlı yazısında Çöhrəqanlıya mərhum Heydər Əliyevin mənəvi keyfiyyətlərini də örnək kimi göstərir: "Bu mənada, hətta söydüyün insandan da öyrənməli bir şey varsa, öyrənməlisən. Heydər Əliyev çörək kəsdiyi, yaxşılığını gördüyü və ya bir yolda olduğu adamı yaddan çıxarmaz və dedi-qoduya uyub fikrini dəyişməzdi. Başqalarından fərqli olaraq, mən illər uzunu sözümü-tərifimi də, tənqidimi də onun üzünə demişəm, sağlığında...".

Xalq şairinin yazısında Çöhrəqanlının yeri gələndə erməni kartından da istifadə etməsi ilə bağlı qeyd var: "DAK həmsədri hörmətli Firudin Pərvizniya ilə ABŞ-a son səfərimiz zamanı Vaşinqtonda baş vermiş bir olay onun şüur səviyyəsini göstərdi və ona olan inamım sarsıldı. İndi məni ittiham etməsinin də kökü həmin hadisədədir. Biz Firudin bəylə ABŞ Konqresinə görüşə getməliydik. Proqram tutulub vaxt müəyyənləşdirilmişdi. Oteldən çıxmazdan yarım saat əvvəl Çöhrəqanlı gəldi, hara getdiyimizi biləndə dedi ki, məni də aparın. Böyük məmnuniyyətlə onun da bizimlə getməsini istərdik. Zəng vurub maraqlandıq, protokolda görüşdə Firudin bəylə mənim nəzərdə tutulduğumu dedilər. Çöhrəqanlının çığır-bağırı (sözün əsl mənasında) başlandı. "Mən getmirəmsə, siz də getməyin!". Hətta bizi Ermənistan səfirliyinə gedəcəyi ilə hədələdi. "Sən illər uzunu burdasan, istədiyin vaxt müraciət edib görüşə bilərsən, bizim gəlişimizi niyə gözləməlisən?" və s. sözlərimiz təsir etmədi. Onda mən sərtləşdim: "mən bu boyda yol gəlib burada sənin ərköyünlüyünə görə işimi poza bilmərəm" deyib görüşə getdim. Çöhrəqanlı getməsə də, oğlu həmin görüşdə mənim tərcüməçim idi və görüşün hansı səviyyədə keçdiyinin şahidi oldu. Aramızdakı soyuqluq həmin gündən başlandı...".



Göründüyü kimi, Mahmudəli Çöhrəqanlı aparmalı olduğu mübarizəni bir kənara qoyub bizim ölkə ilə əlləşir. Buradakı dəyərləri, tanınmış şəxsləri söyüb təhqir edir. Onun bu davranışları necə dəyərləndirilə bilər?

Beynəlxalq Diaspor Mərkəzinin rəhbəri İsmayıl Ağayev qəzetimizə bildirdi ki, Mahmudəli Çöhrəqanlının Azərbaycanda yaxşı nüfuzu olub: "Bu onun apardığı mücadilə, çəkdiyi əziyyətlə bağlı idi. Ola bilər ki, gənc nəslin nümayəndələri onu o qədər də yaxşı tanımırlar. Ancaq yaşlı və orta nəsil Çöhrəqanlını gözəl xatırlayır. İranda gördüyü təqiblərə görə mühacirətə getməyə məcbur oldu. Onun önündə böyük bir mübarizə meydanı var. Mən başa düşə bilmirəm, niyə Çöhrəqanlı belə fəaliyyətə start verib? Biz axı onu Orduxanla, Vidadi İsgəndərli ilə də eyni tuta bilmərik. Ancaq görünən budur ki, kimlərsə bilərəkdən Çöhrəqanlını məhv edir. Bəlkə yaşlı adamdır, bir az əsəbləri pozulub, niyə belə adamdan istifadə edirlər?

Mən Qurban Məmmədovun internet televiziyasında Çöhrəqanlının çıxışlarına baxmışam. Çox biabırçı bir ritorika seçib. Maraqlıdır ki, Çöhrəqanlı hər dəfə söyüş söyəndə aparıcı ona əl çalır. Belə olmaz. Sabir bəyin yazısını oxuduqdan sonra Çöhrəqanlının halına lap acıdım. Hər halda, onun rəhbərlik etdiyi təşkilatda bu məsələni aydınlaşdırmalıdırlar. Çünki Çöhrəqanlı həm də bir hərəkatın təmsilçisi kimi danışır. Lazımdırsa, ona belə müsahibələr verməkqadağan edilsin. Belə olmasa, Çöhrəqanlı bütün bir hərəkatın adını rüsvay etmiş olacaq. Bəzi qüvvələrə bu sərf edir. Bəlkə də planlı şəkildə edib, bir güllə ilə iki hədəfi vururlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın ABŞ-dakı ən güclü təbliğatçısı "pedofil" çıxdı

**ABŞ-ın Kaliforniya ştatında yaşayan erməni hüquq müdafiəçisi, jurnalist-araşdırmaçı və "Ermənistan siyasi forumu" (PFA) analitik mərkəzinin üzvü, ən əsası, Baş nazir Nikol Paşinyanın inqilabçı tərəfdaşı Ara Manukyan pedofiliyada ittiham olunur. Bu haqda Kaliforniya məhkəməsinin sənədlərinə əsasən sosial şəbəkələrin erməni seqmentində məlumat yayılıb.**




## *Qabil Hüseynli: "Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistanın həm diasporu, həm də hakimiyyəti kriminal mahiyyətlidir"*

Bildirilir ki, Manukyana qarşı 2019-cu il avqustun 6-da seksual xarakterli cinayətlər, daha dəqiqi, pedofiliya ilə bağlı ittihamlar irəli sürülüb. Kaliforniyanın Cinayət Məcəlləsinə əsasən, ittiham 14 yaşına çatmamış şəxslərə qarşı seksual cinayətləri nəzərdə tutur.

Məlumatda deyilir ki, Manukyanın barəsində girov əvəzində məhkəməyə qədər sərbəst buraxılma tədbiri seçilib. O, 1 milyon 330 min dollar girov qoyub. İttihamlar üzrə Manukyanı 10 il həbs gözləyir.

Erməni KİV-inin araşdırmasında bildirilir ki, Manukyanın fəaliyyətindən narazılıq çoxdur. Çünki o, ABŞ-dakı bütün erməni icmasını parçalayıb. Bildirilir ki, hazırda Paşinyanın hökumətini dəstəkləyən bu şəxs əvvəl "Sasna tsrer" hərəkatının üzvü olub. Paşinyanın silahdaşlarının belə biabırçı işlərlə məşğul olması nəyi söyləməyə əsas verir?

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, bu fakt özü ermənilərin bütün dünyada biabırçı işlərlə məşğul olduğunu sübut edir: "Sözügedən şəxs Paşinyanın yaxın silahdaşı sayılır. İnqilabla bağlı ona böyük maddi və informasiya dəstəyi verib. Ermənilərin ən sıx məskunlaşdığı Kaliforniyada qərar tutub və erməni diasporunun aparıcı isimlərindən sayılırdı. Yayılan informasiyalardan görünür ki, oradakı ermənilərin özü Manukyanın ifşa olunmasında maraqlıdırlar. Çünki informasiya məhz onlar tərəfindən ictimailəşdirilir. Ancaq ortada konkret fakt var. ABŞ-da belə məsələlərə olduqca ciddi yanaşılır. Bu bir də sübut edir ki, erməni diasporunun xaricdəki nümayəndələri bütün cinayətlərlə məşğul olurlar. Qısa müddət əvvəl onların Avropada böyük mafiyası ifşa olundu. Mərc oyunlarından tutumuş, fahişəxanaları himayə etməyə kimi adları hallanırdı. Ermənistan həm də terror təşkilatlarını, radikal faşistləri dövlət səviyyəsində dəstəkləyir. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistanın həm diasporu, həm də hakimiyyəti kriminal mahiyyətlidir. Bu yalnız Paşinyanın ətrafına aid deyil. Bundan əvvəlki prezident Sarkisyanın da "qanuni oğru"lara diplomatik pasport verdiyi üzə çıxmışdı. İndi fikir verin ki, Ermənistan diaspordan alınan pulların, ianələrin hesabına yaşayır. Görün ölkənin təməli nəyin üzərində dayanır. Hansı əxlaqda olan adamlar erməni elitasını təmsil edirlər. Məhz buna görədir ki, onlar işğalçı siyasətlərindən də əl çəkmirlər. Manukyanın qoyduğu girovun məbləğinə diqqət edin. Deməli, bunun arxasında ciddi güc var. Yaranmış vəziyyət, eyni zamanda, xaricdəki erməni diasporu arasında ziddiyyətlərin kulminasiya nöqtəsinə çatdığını şərtləndirir. Əvvəl nə olsaydı da, ermənilər bir-birini ifşa etmirdi. İndi isə bir-birinin qanını içməyə hazırdırlar. Bu fakt Ermənistan hakimiyyətində təmsil olunan adamların əsl mahiyyətini ortaya qoyur. Belə deyim var: dostunu göstər, deyim sən kimsən".

***Məhəmmədəli QƏRİBLİ***

# Ərəb dünyası və Cənub-Şərqi Asiya nəhənglərinin diqqəti Azərbaycana yönəlir...

**İqtisadi müstəvidə son illər daha mühüm nailiyyətlərə imza atmağa başlayan Azərbaycan qarşıdakı dövr ərzində Ərəb dünyası, eləcə də Asiya nəhəngləri ilə münasibətlərini daha da genişləndirməyi düşünür. Xatırladaq ki, xarici iqtisadi müstəvidə Azərbaycan münasibətlərini bu vaxta qədər daha çox Qərb dövlətləri, Rusiya və bir sıra digər MDB ölkələri ilə qurub. Amma indi ərəb ölkələri ilə iqtisadi əlaqələrin dinamik genişlənməsi baş verir və bu, əsas etibarilə, qeyri-neft sektorunu əhatə edir.**




Asiya nəhəngləri ilə də əlaqələr durmadan genişlənir. Məsələn, Azərbaycan Çinlə "Bir kəmər bir yol" kimi böyük bir transmilli layihənin həyata keçirilməsində aktiv əməkdaşlıq edir. Çin şirkətəlri ilə son dövrlər ərzində çoxsaylı müqavilə əldə olunub. Belə bir vaxtda Pakistan və Hindistan kimi böyük ölkələrin də Azərbaycana marağı artır. Xatırladaq ki, elə bu günlərdə ölkəmizə Pakistandan dövlət rəsmiləri və özəl sektoru təmsil edən 150-dən çox biznesmen gəlib. Onların sırasında olan Pakistanın Xayber Paxtunxva əyalətinin Sənaye Ticarət Palatasının prezidenti Feyzi Məhəmməd bildirib ki, ölkəsinin iş adamları azərbaycanlı həmkarları ilə əməkdaşlıq qurmaqda çox maraqlıdırlar: **"Bakıya bizimlə Pakistanın müxtəlif sahələrə mənsub 150-dən çox sahibkar, rəsmi şəxslər gəlib. Burada bir sıra səmərəli görüşlər keçirərək regionumuzun potensialını nümayiş etdirməyi nəzərdə tuturuq. Əyalətimiz çox zəngindir, böyük neft və qaz yataqlarımız var. Bu vilayət bütün Pakistanın neft ehtiyacının 50%-ni təmin edir. Azərbaycanın isə neft-qaz yataqlarının işlənməsində çox böyük təcrübəsi var. Biz bu sahədə Azərbaycanla əməkdaşlıq etmək niyyətindəyik. Bundan əlavə, Xayber Paxtunxva vilayətinin turizm sahəsində də böyük potensialı var ki, biz azərbaycanlı turistləri bu bölgəyə səfər etməyə çağıracağıq".**

Amma qeyri-neft sektoru da xüsusi diqqət mərkəzindədir. Məsələn, artıq bəllidir ki, Pakistan Azərbaycanda farmakologiya və tekstil sahələrində hər iki ölkədən olan biznesmenlərin birgə iştirakı ilə müəssisələr yaratmaq niyyətindədir. Xayber Paxtunxva əyalətinin Sənaye Ticarət Palatasının vitse-prezidenti Zahid Şinvari, bu fonda, əyaləti təmsil edən biznesmenlərin Azərbaycanda farmakologiya, tekstil sahələrinə investisiya yatırmaq niyyətində maraqlı olduqlarını bildirib: "Biz görürük ki, Azərbaycan bir çox məhsulu Türkiyədən idxal edir. Biz isə tekstil, neft-kimya və digər məhsulları Azərbaycanda istehsal etmək istəyərdik. Pakistan iqtisadiyyatının ixracında 60%-lik payı məhz tekstil sahəsi tutur. Biz bu sahədə təcrübəmizi Azərbaycanla da bölüşmək niyyətindəyik. Azərbaycanın rayonlarında pambıq yetişdirilir. Bu sahədə böyük potensial var. Biznesmenlər azərbaycanlı həmkarları ilə görüş zamanı bu imkanları da nəzərdən keçirəcəklər".

Pakistanın Azərbaycandakı səfiri Səid Xan Möhmənd xatırladıb ki, Pakistanda əczaçılıq inkişaf etmiş sektordur: "Hazırda bu sahədə ölkədə 2000-dən çox farmakologiya müəssisəsi var. Bizim bu sahədə böyük təcrübəmiz var. Mən ölkəmizdən olan biznesmenlərlə bu sahədə müzakirələr aparmışam. Onlar Azərbaycanda bu sahəyə investisiya yatırmaq istəyirlər. Pakistanlı biznesmenlər Azərbaycan bazarı ilə yanaşı, öz dərman məhsullarını MDB ölkələrinin bazarlarına çıxarmağı da hədəfləyirlər". Bütün bunlar isə qarışdakı dövr ərzində Azərbaycan və Pakistana kifayət qədər böyük üstünlüklər və daha dərin əməkdaşlıq vəd edir.

Xatırladaq ki, hərbi sahədə də əməkdaşlıq dinamik inkişaf edir. Artıq, bilindiyi kimi, Azərbaycan Pakistan istehsalı olan JF-17 "Thunder" döyüş təyyarələrini almağa maraqlıdır. Tərəflər arasında bununla bağlı indiyədək bir neçə dəfə danışıq keçirilib. Azərbaycan mütəxəssisləri Pakistanda JF-17 "Thunder" təyyarələrinin uçuş və atışlarını izləyiblər. Pakistan bəyan edir ki, təyyarənin satışında heç bir problem yoxdur.

**Pakistanla yanaşı, Hindistan üçün də Azərbaycan olduqca maraqlıdır. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi fonunda, əslində, ölkələrimiz arasında yeni əməkdaşlıq qurulur. Hindistan Avropaya ixrac etdiyi yükləri Mumbai limanından İranın Bəndər-Abbas limanına göndərəcək və oradan da yüklər qatarla Rusiya və Şərqi Avropa ölkələrinə daşınacaq. "Şimal-Cənub"un mühüm hissəsini təşkil edən bu yol Hindistan üçün olduqca səmərəlidir. Bu isə o deməkdir ki, qarşıdakı dövr ərzində hind yüklərinin bir hissəsi Azərbaycandan keçərək Avropa bazarlarına çıxacaq. Amma əməkdaşlıq təkcə bununla məhdudlaşmır.**

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti vəzifəsini icra edən Yusif Abdullayev bildirir ki, Azərbaycan və Hindistan üçüncü ölkələrin informasiya texnologiyaları bazarlarında iştirakla bağlı müzakirələr aparır. Y.Abdullayev qeyd edib ki, bu ilin yayında Hindistandan gələn ticarət missiyalarının iştirakı ilə biznes-forum təşkil edilib: "Biznes-forum çərçivəsində əldə edilmiş razılıqlara uyğun olaraq, informasiya texnologiyaları sektorunda fəaliyyət göstərən iki Hindistan şirkəti Bakıda ofislərini açmaq istəyir".

Onun sözlərinə görə, Hindistanın dünyada informasiya texnologiyaları sahəsində ön sıralarda olduğunu nəzərə alaraq, Hindistanın Banqlador vilayətində fəaliyyət göstərən informasiya texnologiyaları şirkətləri ilə birgə layihələrin həyata keçirilməsi müzakirə edilir: **"Bununla yanaşı, AZPROMO-nun mütəxəssisləri ilə şirkətlərin nümayəndələri arasında görüşlər keçirilir və ortaq nöqtələr axtarılır ki, hansı sahələrdə biz üçüncü ölkələrin bazarlarında iştirak edə bilərik". Belə vəziyyət o deməkdir ki, qarşıdakı müddət ərzində Azərbaycan və Hindistan əməkdaşlığı genişlənən xətt üzrə inkiaşf edəcək. İndiki məqamda bu, hər iki tərəf üçün sərfəlidir.**

*Tahir TAĞIYEV*

# ADA-nın tələbələri artır - 12 yeni ölkədən bu il tələbələr qəbul edilib

***İlqar Orucov:** "ADA-da xarici tələbələr müxtəlif ixtisaslar üzrə təhsil alacaqlar və gələcək karyeralarını Azərbaycanda aldıqları ali təhsil üzərində quracaqlar"*

**Azərbaycan ali məktəblərində təhsil almaq istəyən xarici ölkə tələbələrinin sayı ilbəil artır. Bu gün universitetlərimizdə dünyanın müxtəlif ölkələrindən olan əcnəbi tələbələr təhsil alırlar. Builki tədris ilində ADA Universitetinə 12 yeni ölkədən, o cümlədən, Belarus, Butan, Qana, Litva, Mozambik, Nepal, Fələstin, Filippin, Səudiyyə Ərəbistanı, Seyşel adaları, Slovakiya və Tacikistandan tələbə qəbul olunub. Ümumilikdə isə universitetdə 45 ölkə öz tələbələri ilə təmsil olunub.**

Seyşel adalarından qəbul olunan Laura Bonifas bildirir: "ADA-ya qəbul olunmaq barədə xəbəri alanda hədsiz dərəcədə sevindim. Öz ölkəmi Azərbaycanda təmsil edən ilk tələbə olmağın qürurunu yaşayıram. Bilirəm ki, burada aldığım təhsil gələcəkdə mükəmməl karyera qurmaq üçün mənə kömək edəcək. Üstəlik, Azərbaycanı və buranın insanlarını öyrənmək dünyagörüşümü daha da genişləndirəcək. İlk gündən buradakıların nə qədər mehriban olduğunun şahidi oluram".

Qeyd edək ki, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadənin mətbuata bildirdiyinə görə, ali təhsil ocağının əlaqələri genişləndirərək tədris mühitini beynəlmiləlləşdirməsi vacib məqsədlərdən biridir: "Biz tələbələrimizə, sözün əsl mənasında, qlobal təhsil almaq üçün şərait yaradırıq. Hazırda ADA Universiteti 38 ölkədə yerləşən 82 universitetlə akademik tərəfdaşlıq edir. Bunun nəticəsi olaraq, bakalavr və magistr tələbələrimiz ADA-da oxuduğu müddətdə bir semestri mübadilə təhsilində keçirə bilirlər. Çox zaman bu mübadilə onlar üçün yeni akademik baxış bucağı ilə yanaşı, yeni dil, yeni mədəniyyətə alışmaq qabiliyyətinə yiyələnmək deməkdir. Builki beynəlxalq tələbə qəbulu prosesi yeni təqaüd imkanlarının yaradılması ilə yadda qaldı. Dövlətimizin başçısı və XİN tərəfindən verilən təqaüdlərlə yanaşı, ADA Universitetinin rektoru Hafiz Paşayevin Özbəkistana səfəri nəticəsində biz bu ölkənin gəncləri üçün biznes dairələrindən alınan ianələr hesabına ayrıca təqaüd təsis edə bildik. Nəticədə Özbəkistandan 6 tələbə ADA-da təqaüdlü təhsil almaq imkanı qazandı".

Xarici tələbələrin ADA-ya marağının səbəblərini şərh edən Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, xarici ölkələrin tələbələrinin ADA Universitetinə maraq göstərməsi olduqca əlamətdar bir məsələdir. "Bu, Azərbaycan təhsili üçün olduqca vacib və əlamətdar hadisədir. Faktiki olaraq, 12 yeni xarici ölkədən tələbələrin bu ali məktəbi seçməsi, bura qəbul olunması, həmin dövlətlərin vətəndaşlarının təhsillərini, öz gələcək karyeralarını ADA Universitetinə etibar etmələri onu göstərir ki, biz artıq ADA-nın timsalında Azərbaycan universitetini bir model kimi formalaşdıra bilmişik. Baxmayaraq ki, ADA-nın yaranma tarixi elə də böyük deyil. Ancaq çox sevindirici haldır ki, bu müddət ərzində ADA universiteti fərqlənə bilib. Bunun nəticəsdir ki, bu il yeni 12 xarici dövlətin tələbələri ADA-nı seçib və öz ali təhsillərini burada alacaqlar. Əlbəttə, mən ADA-nı seçən tələbələrin ölkələrinin siyahısına baxdım. Düzdür, bu ölkələrin heç də hamısı elm tutumlu, dünyada təhsillə bağlı ciddi nəticələri olan ölkələr deyil. Lakin Belarusun bu sahədə nəticələri var. Mən özüm Belarusda olmuşam və onların təhsil sistemi ilə tanışam. Belarusda təhsilin səviyyəsi aşağı deyil. Azərbaycanın xarici ölkələrdə tanınması üçün neft, idman, mədəniyyət kifayət etmir, burada ali təhsil müəssisələrinin də xüsusi yeri olmalıdır. Biz ADA nümunəsində Azərbaycan təhsilinin xaricdə tanınmasını, qəbul edilməsini görə bilirik. ADA nümunəsi olduqca yaxşı nümunədir və digər universitetlərimiz də bu istiqamətdə işlərini qurmalıdırlar. Biz bu gün Azərbaycan gənclərini təhsil almaq üçün xarici ölkələrə göndəririk, arzu edərdim ki, Azərbaycan universitetlərinə də xarici ölkə tələbələri maraq göstərsinlər. Azərbaycanda təhsil alan hər bir xarici tələbə, ən azından, gələcəkdə Azərbaycanın xoşməramlı səfiri olaraq ölkəmizi təbliğ edəcək. Bu baxımdan, bu vacib məqamdır. Çox müsbət hadisədir ki, xarici ölkə tələbələrinin Azərbaycanda təhsil almaları üçün münbit şərait yaradılıb. Hesab edirəm ki, xarici ölkə tələbələrinin ADA-nı seçməsi təsadüfi deyil, bu ali məktəbdə həqiqətən də çox yüksək səviyyədə təhsil verilir. Bu çox yaxşı tendensiyadır".




*"Bu baxımdan, 12 yeni xarici ölkədən ADA Universitetinə tələbələrin qəbul olunması ali təhsilimizdə çox ciddi yenilikdir"*

Azərbaycanda SSRİ dövründə indiki Azərbaycan Neft və Sənaye Universitetində xarici tələbələrin təhsil aldığını xatırladan İ.Orucovun qeyd etdiyinə görə, bu daha çox neft sənayesi ilə bağlı ixtisaslar idi. "ADA-da isə xarici tələbələr müxtəlif ixtisaslar üzrə təhsil alacaqlar və gələcək karyeralarını Azərbaycanda aldıqları ali təhsil üzərində quracaqlar. Bu baxımdan, 12 yeni xarici ölkədən ADA Universitetinə tələbələrin qəbul olunması ali təhsilimizdə çox ciddi yenilikdir" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Müştərilərin bank kredit kartlarından istifadəsi zəifləyib...




***Fuad İbrahimli:** "Son zamanlar əhalinin kredit kartlarına marağı əvvəlki səviyyədə deyil"*

**Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu ilin yanvar-iyul (7 ayda) aylarında debet və kredit kartları vasitəsilə Azərbaycan daxilində aparılan əməliyyatların həcmi 11 milyard 485 milyon manat təşkil edib. Nağdlaşdırma əməliyyatını yalnız nağd pula ehtiyacı olanlar deyil, olmayanlar da aparır. İnsanlar pulu bank hesablarında deyil, nağd şəkildə göz önündə saxlamaq istəyirlər. Bank kredit kartlarından istifadə ötən aylarla müqayisədə azalıb.**

*"Bir çox müştəri müəyyən səbəblərdən tam olaraq kartların məbləğini ödəyə bilmədiyi üçün banklara müraciət edərək..."*

Qeyd edək ki, ölkədə 2015-ci ildə ardıcıl devalvasiyaların ardından yenicə dirçələn bankların təqdim etdiyi kredit və ya taksit kartlarına maraq kəskin şəkildə azalmağa başlayıb. Ölkədə kredit kartlarının sayının 2014-cü ildə 1 milyon 302 min ədədə çatması ölkə tarixində maksimum göstəricini əks etdirdi. Lakin növbəti "böhran dövrü"ndə artıq bu say 1 milyon 10 min ədədə qədər azalmalı oldu. Növbəti illərdə isə bu tendensiyanın davam etməsi ilə kartların sayında antirekordlar yeniləndi və 2015-ci ilin iyulunda bu rəqəm 562 min ədədə qədər düşüb.

Azərbaycanda öncəki ayda ümumi olaraq plastik kartların ölkə tarixində ilk dəfə sayı 7 mln. ədədi ötüb. Plastik kartlar dedikdə bura debet kartlara aid olan əməkhaqqı, sosial və eləcə də kredit kartları aid edilir. Amma, göründüyü kimi, ölkənin maliyyə bazarının son illər artımı fonunda, kredit kartlarında bunun bir qədər əksi baş verir. 1 avqust 2019-cu il tarixində plastik kartlar üzrə yalnız kredit kartlarının sayında (779 min ədəd) azalmalar müşahidə olunub. Artıq əvvəlki kimi kredit kartları insanların marağında deyil.

İqtisadçı Fuad İbrahimli qeyd etdi ki, son zamanlar əhalinin kredit kartlarına marağı əvvəlki səviyyədə deyil: "Ümumiyyətlə, ölkə əhalisində keçmiş təcrübəyə əsaslanaraq bu məhsula qarşı nisbətən qorxu və çəkinmə meylləri yaranıb. Əhali daha çox aylıq ödənişli kreditləri üstün tutur. Məlum devalvasiyalar ardından istehlak kreditlərinin kəskin şəkildə azalması kredit kartlarına da təsirsiz ötüşməyib. Digər səbəb isə kredit kartlarında ödəniş qrafiki və şərtləri ilə bağlıdır. Məlumdur ki, kredit kartlarında ödənişlər müddətin sonunda birdəfəlik olur. Bir çox müştəri müəyyən səbəblərdən tam olaraq kartların məbləğini ödəyə bilmədiyi üçün, banklara müraciət edərək həmin bankdakı məbləğləri aylıq ödənişli istehlak kreditlərinə çevirdi. Bu səbəbdən də kredit kartları bağlanaraq istehlak kreditləri ilə əvəzlənməyə başlandı".

***Günel CƏLİLOVA***

# Paşinyanın kabusu - Putin oktyabrın 1-də İrəvan həbsxanasında Köçəryanla görüşmək istəsə...

**Rusiya və Ermənistan arasında münasibətlərin gərginləşdiyi bir vaxtda erməni mediası gələn ay üçün ölkəni ciddi sınaqlar gözlədiyini yazır. Qeyd olunur ki, gələn ay Rusiya Prezidenti Vladimir Putinin Ermənistan səfərindən sonra Moskva Nikol Paşinyan iqtidarı ilə bağlı konkret hansı addımlar atacağını müəyyən edəcək. Hesab edilir ki, indiki şərtlər daxilində baxılsa, Paşinyanı yaxşı heç nə gözləmir.**



Xatırladaq ki, oktyabrın 1-də Ermənistanda Avrasiya İqtisadi Birliyinin növbəti sammiti keçiriləcək. Görüş ərəfəsində Moskva ilə İrəvan arasında münasibətlərdə gərginliklərin artması isə işğalçı ölkədə böyük əndişə yaradır. Gərginliklərdən biri sabiq prezident Robert Köçəryanla bağlıdır. Xatırladaq ki, Vladimir Putin, əvvəlki kimi, həbsdə olan dostu Robert Köçəryanı müdafiə edir, ona təbrik məktubları göndərir. Aydındır ki, bu təbriklər Paşinyanın xoşuna gəlmir, ancaq asılı olduğu Rusiya liderinin siyasətini tənqid edə bilmir. İndi isə Ermənistan hakimiyyəti ehtiyat edir ki, Vladimir Putin İrəvanda olanda həbsdə olan Köçəryanla görüşmək istəyə bilər. Putinə "yox" cavabı verməyin nə demək olduğunu Paşinyan anlamamış deyil. İkincisi, rəsmi Moskva Ermənistanda ittiham olunan bir sıra şəxsləri İrəvana təhvil verməkdən imtina edir. Ermənistanda barəsində cinayət işi başlanan "Ketrin Qrup" şirkətinin başçısı Miqran Poqosyan Moskvada siyasi sığınacaq alıb. Moskva Poqosyanı İrəvana verməkdən imtina edir. Ermənistan da Rusiya vətəndaşı Vitali Şişkinə siyasi sığınacaq verib. Şişkin radikal millətçidir və Rusiya onu həbs etmək istəyir. Şişkin həbs təhlükəsindən yayınaraq Ermənistana qaçıb. Şişkin Ermənistana 6 ay bundan əvvəl gedib. Bu, Ermənistan müstəqillik qazandıqdan bu yana Rusiyanın "vətəndaşımı mənə təhvil ver" istəyini yerinə yetirmədiyi nadir hadisədir. Erməni siyasi ekspert Aram Armatuni bildirir ki, bu durum İrəvana baha başa gələcək. Ekspert vurğulayır ki, Rusiya Avropa İnkişaf Hüququ Partiyasının liderі Vitali Şişkinə siyasi sığınacaq verilməsi məsələsi Ermənistan-Rusiya münasibətləri çərçivəsində mövcud olan problemlərlə bağlı müzakirələrin aparılması üçün yeni bir fürsətdir: "Şişkinlə bağlı nə baş verdiyi məlum olmadığı halda, bunu Ermənistan-Rusiya münasibətləri sahəsindən çıxarsaq, o qədər də vacib məsələ deyil. Aydındır ki, əsas məsələ həmin sahədə nələrin baş verməsidir. Burada məsələni yəqin ki, iki hissəyə bölmək olar. Yeni hökumət Ermənistan-Rusiya münasibətlərinin normal inkişaf etdiyini və heç bir problem olmadığına əmin edir. Lakin keçmiş hakimiyyət ətrafındakı ekspert dairələrinin iddia etdiyinə görə, böyük bir problem və etimadsızlıq mövcuddur. O cümlədən, Şişkin məsələsi bu problemin nümunələrindən biridir. Bu həqiqətin ortada olduğu və olduqca obyektiv bir məsələdir".

Armatuninin sözlərinə görə, inqilabdan sonra erməni-rus münasibətlərinin öz axarında və keçmişdəki kimi olmadığı aydın görünür: "Digər tərəfdən də olduğu kimi qalması də mümkün deyil, çünki Ermənistanda dəyişikliklər də baş verir. Təbii ki, bu dəyişikliklər erməni-rus münasibətlərinə yenidən baxılmasına gətirib çıxaracaq. İndiyədək bu münasibət Ermənistanın birtərəfli gözləmə rejimində həyata keçirilib. Digər tərəfdən şübhəsizdir ki, Rusiya, istənilən halda, münasibətlərin keçmiş formasından və strukturundan asanlıqla imtina etməyəcək. Aydın desək, Rusiya sahib olduğundan imtina etməyə və yenidən formalaşma üsulları ilə asanlıqla barışmayacaq. Bundan başqa, bu rejimi təyin edən rus dairələri rus mövqelərini təmin etməklə, konkret olaraq, Kreml qarşısında, o cümlədən, Azərbaycan və Türkiyə qarşısında iqtisadi və siyasi faydalar əldə ediblər. Bu münasibət illərlə formalaşmaqla 2013-2016-cı illərdəki ən təhlükəli zirvəsinə çatıb".

Armatuni bildirib ki, Ermənistandakı dəyişikliklər hətta daxili siyasət üçün vacib olan erməni-rus münasibətlərini belə dəyişməyə, bərabərləşdirməyə, dövlətlərarası münasibətlər səviyyəsinə çatdırmağa üstünlük verir. Lakin bu dəyişikliklərə obyektiv zərurət olduğu və qaçılmaz olduğu bir şəraitdə Rusiyaya dəstək verən keçmiş hakimiyyət nümayəndələrinin simasında indiki hakimiyyətə qarşı mürəkkəb və çoxtəbəqəli problemlərlə əhatə edilmiş mühit formalaşıb: "Ermənistan bu mürəkkəb mühitdən keçməyə bilər. Belə bir hal mümkündür, bu cür olduğu təqdirdə Ermənistan dəyişiklik və müasirləşdirmə üzrə tam yolu keçə bilməz. Erməni ekspert düşünür ki, Rusiya siyasi rəhbərliyinin hakimiyyət, səmərəli idarəetmə, Ermənistanın keçmiş hakimiyyət sisteminə dəstək verən bir sıra dairələrdə və onların rus tərəfdaşlarında, yaxud müttəfiqləri sırasında Moskvada Ermənistana qarşı etimadsızlıq yaradılması üzrə fasiləsiz səy göstərilməsinə davam etməsi də diqqətdən yayınmır. Bu o deməkdir ki, Moskva göz yaşlarına inanmır".

Türkiyəli politoloq Engin Özer isə vurğulayır ki, belə vəziyyətdə Paşinyanın hökumət başçısı kürsüsündə çox qalmayacağını ehtimal etmək olar: "Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdən Kremlin etibarını itirib. Onun bəyanatlarına və davranışına Moskvanın belə reaksiyası anlaşılandır və bu münasibət erməni baş nazirin ardıcıl olmayan xarici siyasət kursu ilə bağlıdır. O, gah Ermənistanı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxaracağını deyir. Ardınca isə Rusiyanın İrəvanın strateji tərəfdaşı və ən sadiq müttəfiqi olduğunu bildirir. Bununla yanaşı, Paşinyan Vaşinqton nümayəndələri ilə sıx ünsiyyət qurmağa davam edir. Bu səbəbdən ruslar ona etibar etmir, onunla işləmək istəmirlər. Kremlin xahişinə rəğmən, erməni baş nazirin Rusiyayönlü Robert Köçəryanı təqib etməsi də burada böyük rol oynayır". Ekspert vurğulayıb ki, Qərb ölkələri də Paşinyanın siyasətindən narazıdırlar: "ABŞ-dan xarici investisiyanın həcminin azalması Paşinyanı ciddi narahat edir. Bundan əlavə, Donald Tramp administrasiyası İrəvandan Suriyadan hərbi kontingenti çıxarmağı tələb etməyə davam edir. Digər tərəfdən, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin erməni kontingentini artırmaq təklifi barədə məlumat yayılır. Paşinyana etibar etmədikləri üçün Parisdə də onun siyasəti narazılıq doğurur".

**Onun fikrincə, Paşinyan Ermənistanda ictimai-siyasi vəziyyətə nəzarət edə bilməyən çox zəif liderdir: "Hesab edirəm ki, o, hakimiyyətdə çox qalmayacaq. Hətta Ermənistanda dövlət çevrilişi də baş verə bilər. Yaxud Paşinyanın siyasi rəqibləri onu baş nazir vəzifəsindən istefa verməyə məcbur edə bilər".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# ABŞ və Rusiya Ermənistana təzyiq üsulu kimi Qarabağ kartını işə saldı...

**ABŞ və Rusiya kimi böyük ölkələrin işğalçı Ermənistanla münasibətlərində ciddi problem yaranması artıq heç kimə sirr deyil. Məsələnin də əsl mahiyyəti budur ki, Ermənistan hakimiyyətinin xarici siyasət fəaliyyəti həm Moskva, həm də Vaşinqton tərəfindən mənfi qarşılanır. Elə bu səbəbdən indi hər iki tərəf Ermənistanı ağıllandırmaq üçün təzyiq kartlarını işə salıb.**

Ermənistanın belə vəziyyətdə tərəflərdən hansısa birinə yarınmaq cəhdi isə hansısa səmərə vermir. Əksinə, qarşıdakı dövr ərzində təzyiqlərin miqyasının daha da genişlənməsi gözlənir. Maraq doğuran əsas məqamlardan biri isə belə vəziyyətin Dağlıq Qarabağ münaqişəsinin gedişinə necə təsir edəcəyidir.

Ekspert təhlilləri göstərir ki, əslində, həm ABŞ, həm də Rusiya yaxın tezlikdə digər məqamlarla yanaşı, Qarabağ məsələsi üzərindən də Ermənistana təzyiq rıçaqlarını işə sala bilər. Çünki digər hallarla müqayisədə Qarabağ kartı Nikol Paşinyan iqtidarının daha qısa müddətdə sonunu gətirə bilər. Bunu Moskva və Vaşinqtonda da aydın sezirlər. Məhz bu səbəbdən istisna olunmur ki, Paşinyan yaxın tezlikdə Qarabağ kartı ilə də sıxışdırılacaq. Ən azından o baxımdan ki, Ermənistan Baş naziri nə ABŞ-ın, nə də Rusiyanın tələbələrini yerinə yetirir. Məsələn, məlumdur ki, bu günlərdə ABŞ administrasiyası Ermənistan hakimiyyəti qarşısında hərbi kontingentin Suriyadan geri çəkilməsi haqda tələb qoyub. Ermənistanda nəşr edilən "168 jam" qəzeti də öz mənbələrinə istinadən yazırdı ki, həmin məsaj Ermənistan hakimiyyətinə 2019-cu il avqustun 12-13-də Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin İrəvana səfərindən dərhal sonra çatdırılıb. Deyilənlərə görə, Patruşev Ermənistan hakimiyyətindən bunun əksini-Suriyadakı erməni hərbi kontingentinin sayının artırılmasını tələb etmişdi. Məlumatda deyilirdi ki, ABŞ Ermənistanın Suriyaya hərbi kontingent göndərməsi ilə bağlı narazılığını bu ölkənin BMT-dəki səfiri Mqer Marqaryan vasitəsilə çatdırıb. Ağ Ev bəyan edir ki, bu məsələ Ermənistan-ABŞ münasibətlərinə zərbə vurur. O da diqqətə çatdırılıb ki, kontingent çıxarılmasa, bunun ikitərəfli münasibətlərə təsiri olacaq, üstəlik, ABŞ Ermənistana verdiyi minatəmizləyən avadanlığın Suriyada istifadə edilməsinə qadağa qoyacaq. Amma artıq məlumdur ki, Ermənistan ABŞ-ın bu istəyini rədd edib. Məsələyə yenidən toxunan "168 jam" qəzetinin xəbərinə görə, buna qəzəblənən ABŞ Ermənistanı qarşı hərəkətə keçib və maliyyə yardımlarının azalması da elə bundan qaynaqlanır.

Xatırladaq ki, Ağ Ev 2020-ci ildə Dövlət Departamenti və Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətinin maliyyələşdirilməsini azaltmağı planlaşdırır. Bu qərara uyğun olaraq, ABŞ hökuməti tərəfindən dünyanın müxtəlif regionlarında layihələrin və proqramların reallaşdırılması üçün ayrılan maliyyə vəsaitinin miqdarı da azalır. Vaşinqton Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində minaların təmizlənməsini həyata keçirən Britaniyanın xeyriyyə və ABŞ-ın qeyri-kommersiya təşkilatı olan "HALO Trust"ın fəaliyyətini də 20 ilə yaxındır USAID-in xətti ilə maliyyələşdirir. Bu vaxta qədər Vaşinqton Dağlıq Qarabağda ərazilərin minalardan təmizlənməsi işlərinin aparılması üçün "HALO Trust" təşkilatı vasitəsilə 17 milyon dollardan çox vəsait yatırıb. Amma artıq bu vəsait dayandırılır. Ermənistanın özünə də ayrılan vəsaitin dayandırılması istiqamətində müvafiq addımlar atılır.

Erməni lobbisinin nümayəndələri ABŞ tərəfini bu qərarı ləğv etməyə məcbur etmək üçün dəridən-qabıqdan çıxmağa başlasa da, nəticə yoxdur. "168 jam" qəzeti yazır ki, ABŞ digər istiqamətlərdə də təzyiq siyasətinə başlayacaq. Bura Ermənistanla işbirliyinin digər istiqamətlərdə də dayanadırılması, Qarabağ məsələsində Azərbaycana köməyin artırılması və digər sahələr daxildir.

Avropalı hərbi ekspert Treys Cerman qeyd edir ki, Suriyaya hərbi kontingent göndərmək və İranla işbirliyinə getmk ABŞ-ın Ermənistana qarşı siyasətini daha da sərtləşdirəcək. ABŞ-ın erməni hərbi heyətinin Suriyadan çıxarılmasını tələb etməsi barədə yayılan məlumatlara münasibət bildirərkən ekspert vurğulayıb: "Ermənistan kimi bir ölkə üçün bu tələb, yaxud təklifin dərhal qəbul edilməsi və hərbi heyətini Suriyadan çıxarması olduqca çətindir". Ekspert Birləşmiş Ştatların belə bir tələb irəli sürə biləcəyini istisna etmir. O bildirib ki, ABŞ-ın bu məsələdəki mövqeyi erməni tərəfi üçün yeni deyil: "Siyasi qərar olduğu halda, Suriyadan Ermənistanın hərbi heyətini çıxarmağa müəyyən vaxt tələb olunacaq. Bu bir missiyadır, zamanı gəldikdə yekunlaşacaq. Bundan əlavə, Ermənistan ABŞ-la münasibətlərdəki bu fikir ayrılığını aradan qaldırmaq üçün bu missiyanı çox fərqli səbəblərlə dayandıra bilər".

Avropalı ekspert Ermənistanın Suriyaya hərbi heyət göndərməsinin səbələrinə də toxunub: "Əslində, erməni tərəfi tez-tez həyata keçirilməzdən əvvəl böyük bir erməni-rus layihəsi kimi təqdim olunan bu layihənin Ermənistan-Rusiya münasibətlərindəki bəzi problemləri həll edəcəyini gözləyirdi. Lakin Ermənistan-Rusiya münasibətlərində hələ də bəzi ziddiyyətlərin mövcud olduğu məlum olduğu halda, hansı problemin varlığı və həll edildiyi məlum deyil. Bu missiyadan sonra Ermənistanın üzləşə biləcəyi təhlükələr isə həddindən artıq çoxdur. Buna görə də Ermənistan özünün və Suriyadakı erməni icmasının təhlükəsizlik maraqlarından çıxış etməlidir, çünki Rusiyanın açıqlamalarında bu addım ortaq bir layihə kimi dəyərləndirilmir. Erməni tərəfi son vaxtlar bunu yalnız erməni icmasına dəstək məqsədi daşıyan layihə kimi təqdim edir. Ancaq yaxın gələcəkdə erməni tərəfinin belə bir kəskin qərar verəcəyini düşünmürəm".

Məsələnin maraqlı tərəflərindən biri də budur ki, yaranmış vəziyyətdə Ermənistan Rusiyanın istəyinə uyğun olaraq Suriyaya göndərdiyi hərbçilərin sayını artırmaqdan imtina edir. Bu isə Moskvanı qəzəbləndirir. Artıq yaranmış vəziyyətdə Rusiya-Ermənistan əlaqələrində ciddi çat müşahidə olunur. "1in.am" saytı Rusiya-Ermənistan münasibətləri ilə bağlı yazır: "Rusiyanın məmurları və yarırəsmi dairələri, o cümlədən, erməniyönlü ekspertlər Ermənistana qarşı ənənəvi siyasət irəli sürürlər. İrəvanda keçirilən Avrasiya İqtisadi Birliyinin forumlarının birində Ermənistan tərəfi Rusiyanın Baş naziri Dmitri Medvedyev qarşısında müttəfiqliyin səmərəliliyi məsələsini qaldırmağa cəhd etdi. O isə Ermənistanı meyvə və tərəvəz yetişdirilməsi sahəsində fəallığı artırmağa çağırdı. Rusiya Ermənistandakı indiki hakimiyyətə etibar etmir: Sual doğur: Rusiyanı əsəbləşdirməmək üçün Ermənistan suverenliyi və iqtisadi inkişafın perspektivindən imtina etməlidir?! İndiki hakimiyyət Ermənistanın müstəqilliyinin güclənməsinə çalışır. Bir sıra siyasi ekspert dairələr isə hökumətə məhz bu məsələdə təzyiq edirlər. Onlar Moskvaya donos ötürür, yardım istəyirlər. Ermənistan isə Avrasiya İqtisadi Birliyinə qoşulmaqla Rusiyanın 5-ci kolonuna çevrilib. Ermənistanda hakimiyyətdə kimin olmasının Moskva üçün fərqi yoxdur. Əsas məsələ Ermənistanın suverenliyinin inkişafına yol verməməkdir. Ölkədə Köçəryan kimilər olduqca suverenliyi inkişaf etdirmək mümkün olmayacaq.

Ermənistanyönlü olması ilə tanınan Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulin də Moskva-İrəvan münasibətlərinin gərginləşdiyini etiraf edir. Belə vəziyyətdə Moskvanın Suriyaya əlavə hərbi heyət göndərilməsini tələb etməsinə İrəvanın yox deməsi Rusiyanın Ermənistana qarşı daha sərt siyasətə başlamasını istisna etmir. Bura, ilk növbədə, iqtisadi müstəvi daxil olacaq. Ardınca istisna olunmur ki, digər sahələr, məsələn, Qarabağ məsələsi gəlsin. Qarabağ amili daim Rusiya üçün mühüm ehtiyat variant olub".

Portal onu da yazır ki, Rusiya Prezidenti Vladimir Putinin gələn ay Ermənistana gözlənilən səfərdən imtina edə biləcəyi ilə bağlı məlumatlar da Moskvanın təzyiq siyasətinə keçməsinin daha bir göstəricisi olacaq. Xatırladaq ki, erməni mətbuatında Putinin Robert Köçəryanın həbsdə olmasından narazı olduğuna görə Ermənistana gəlməyəcəyi ilə bağlı məlumatlar mövcuddur. Başqa bir məlumatda qeyd edilir ki, Putinin Ermənistana gəlməklə həbsxanaya baş çəkmək və Robert Köçəryanla görüşmək istəyi var. Bu məlumatların nə dərəcədə doğru olub-olmaması məlum deyil. Digər tərəfdən, Rusiya Prezidentinin Ermənistan səfəri rəsmi olaraq təsdiqlənməyib.

Ancaq erməni-rus əlaqələrinin qeyri-standart mərhələdə olması həqiqətdir. Hesab olunur ki, İrəvanda baş tutacaq Avrasiya İqtisadi Birliyinin iclasının Putin tərəfindən boykot ediləcəyi təqdirdə Ermənistan çox şey itirməli olacaq. Bura Qarabağ məsələsi də şamil edilir və bu məsələdə Rusiyanın Ermənistan əleyhinə aktiv siyasətə start verib Azərbaycanla sıx işbirliyinə getməsi istisna olunmur: "Ermənistan hakimiyyəti oduqca çətin durumdadır. Rusiya bizə ciddi problemlər yarada biləcək addımlar ata bilər. Bunlar çox incə oyundur, onu çox hazırlıqlı oynamalısan". Beləliklə, qeyd edilənlər hazırda Ermənistanın xarici siyasət sahəsində ciddi problemlər yaşamaqda olduğunu üzə çıxarır. Bunun isə digər sferalarla yanaşı, Qarabağ məsələsinə də əhəmiyyətli dərəcədə təsir göstərməsi qaçılmaz sayılır. Hər halda, hadisələrin inkişaf axarı yaxın tezlikdə Qarabağ məsələsində müəyyən dəyişikliklərin olmasını istisna etmir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son 4 il ərzində Azərbaycanda kütləvi informasiya vasitələrində yayımlanan reklamdan gələn gəlirlərin həcmi 3 dəfədən çox azalıb. Belə ki, 2015-ci ildə KİV-də yayımlanan reklamlardan gələn gəlirin miqdarı 25 969 100 manat, 2016-cı ildə 10 912 400 manat, 2017-ci ildə 4 684 800 manat olub.**

# KİV-in reklam gəlirlərinin üç dəfə azalma səbəbləri nədir...

Ötən il KİV-in reklamdan əldə etdiyi gəlirin miqdarı əvvəlki ilə nisbətən artsa da, bu məbləğ 2015-ci ilə nisbətən yenə də 3 dəfədən çox az olub. 2018-ci ildə KİV-də yayımlanan reklamlara görə 7 747 200 manat gəlir əldə edilib.

Ümumilikdə, KİV-də yayımlanan reklama görə gəlirin ən böyük payı televiziyaların payına düşür. Amma reklam yayımlanmasından gələn ümumi gəlirin azalması səbəbindən televiziyaların da reklama görə əldə etdiyi gəlir məbləği azalıb. 2015-ci ildə televiziyada yayımlanan reklamdan 19 836 000 manat gəlir əldə edildiyi halda, 2018-ci ildə bu rəqəm 6 912 400-ə enib.

O da məlumdur ki, ölkə mətbuatının ciddi problemlərindən biri də reklam bazarının inkişaf etməməsidir. Problem dəfələrlə media ekspertləri, qəzet rəhbərləri, hətta hökumət təmsilçiləri tərəfindən gündəmə gətirilib. Məsələnin həllinə nail olmaq üçün indiyə qədər bir çox variant səsləndirilib. Ancaq vaxtaşırı irəli sürülən təkliflər medianın reklam vasitəsilə gəlir əldə etmək problemini həll etməyib. Görünən odur ki, ölkə mediasında reklam bazarının durumu media nümayəndələrini qane etmir.

Bütün bunlarla yanaşı, KİV-in reklam gəlirlərinin üç dəfə azalmasının səbəbləri nə ilə bağlıdır?



## *Elçin Mirzəbəyli: "Bunun bir səbəbi, bütövlükdə, Azərbaycanda reklam bazarının kiçik olması ilə bağlıdır"*

Məsələyə münasibət bildirən "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli KİV-in reklam gəlirlərinin azalmasını bir sıra amillərlə əlaqələndirdi: "Bunun çoxsaylı səbəbi var və dəfələrlə bununla bağlı Mətbuat Şurasında müzakirələr aparılıb. Bir sıra məsələlərlə bağlı ortaq məxrəcə gəlib bunun həlli yollarını göstərmişik. Bütövlükdə, reklam və sosial elanlarla bağlı vahid bir qurumun yaradılması məsələsi dəfələrlə gündəmə gəlib, amma təəssüflər olsun ki, sözügedən məsələdə heç bir irəliləyiş yoxdur. KİV-in reklam bazarının son dörd ildə kiçilməsinin bir səbəbi qeyri-neft sektoru ilə bağlı olan məsələdir. Məsələ ondadır ki, bu sektorda ciddi islahatlar həyata keçirilir. Yeni strukturlar yaradılır və bu proses müəyyən qədər vaxt tələb edən məsələdir. Başqa bir amil isə, bütövlükdə, Azərbaycanda reklam bazarının kiçik olması ilə bağlıdır. Bu da ölkədəki iş adamlarının, ümumiyyətlə, mediaya olan münasibətindən irəli gəlir. Problem ondadır ki, Azərbaycanda iş adamlarının əksəriyyəti hansısa bir problemlə qarşılaşanda mətbuatı yada salır. Eyni zamanda, onların piarları ilə bağlı olan məlumatların dərc edilməsini mətbuatın borcu hesab edirlər. Fikrimcə, bu məsələdə iş adamlarının təfəkkürü dəyişməlidir. Milli burjuaziya milli mətbuatın inkişafında maraqlı olmalıdır.

*"Ölkədə iş adamlarının əksəriyyəti hansısa bir problemlə qarşılaşanda mətbuatı yada salır"*

20-ci əsrin əvvəllərində Azərbaycan müstəqil dövlət deyildi. Ancaq o zaman həmin dövrün varlı təbəqəsi mətbuatın inkişafına dəstək verirdi. Onlar o zaman yaxşı başa düşürdülər ki, milli mətbuatın inkişafı həm də milli burjuaziyanın inkişafı deməkdir. Hesab edirəm ki, bunun hazırkı iş adamlarına izah edilməsinə ehtiyac var. İş adamları mətbuatın yanında olub KİV-in reklam bazarının inkişafına dəstək verməlidirlər. Hər şeyi dövlətin üzərinə atmaq doğru deyil. Çünki mətbuat milli platforma üzərində inkişaf edəndə, o zaman bir sıra mövcud problemlərin aradan qaldırılması üçün geniş imkanlar yaranır".

**_Vidadi ORDAHALLI_**

**Beynəlxalq İqtisadi Forum dünya ölkələrinin turizm sahəsində rəqabətədavamlılıq reytinqini yeniləyib. Builki reytinqdə dünyanın 180 ölkəsi yer alıb. Qurumun ekspertləri turizm sahəsində rəqabətə ən dayanıqlı ölkələrin reytinqini açıqlayıblar.**

# Dünya İqtisadi Forumunun yeni rəqəmləri - turist cəlb etmək qabiliyyətinə görə Azərbaycan bir sıra ölkələri qabaqlayır




*"İndiki şəraitdə turizm sahəsində rəqabətədavamlılıq reytinqində 180 ölkə arasında 71-ci yerdə qərarlaşmaq müsbət göstəricidir"*

## *Elçin Rüstəmov: "Turizmlə bağlı prosedurların sadələşdirilməsi bu məsələdə vacib rol oynayıb"*

Reytinq tərtib olunan zaman sıralamada rəqabətədavamlılıq göstəriciləri olaraq tarixi və mədəni irs, iqtisadi, nəqliyyat, bank sektoru, kommunikasiya, viza rejimi, səhiyyə, sakinlərin qonaqpərvərliyi və s. amillər nəzərə alınıb.

Siyahıda Azərbaycan bu göstəricilərin cəminə görə 71-ci pillədə qərarlaşıb. Gürcüstan cəmi 3 pillə önə çıxaraq, 68-ci yeri tutub. Cənubi Qafqazın sonuncu təmsilçisi Ermənistan isə 79-cu pillənin sahibi olub. Göründüyü kimi, Azərbaycan Cənubi Qafqazda Gürcüstandan 3 pillə geri qalsa da, Ermənistandan öndədir. Qonşu İrandan isə xeyli öndədir. Belə ki, qonşu ölkələrdən turizmi rəqabətə ən dayanıqlı ölkələr sırasında Türkiyə 43-cü, Rusiya 39-cu, Ukrayna 78-ci, İran isə 89-cu yerdə qərarlaşıb.

Reytinqin liderləri isə İspaniya (1), Fransa (2), Almaniya (3), Yaponiya (4) və ABŞ (5) seçiliblər.

Reytinq cədvəlində qeyd edilən turizm sahəsində rəqabətədavamlılıq sıralamasından belə məlum olur ki, Azərbaycan bu sahədə mövqelərini xeyli yaxşılaşdırıb. Eyni zamanda, bir sıra ölkələri qabaqlayıb.

Maraqlıdır, ekspertlər bu istiqamətdə müşahidə olunan müsbət tendensiyanı necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov Azərbaycanın turist cəlb etmək baxımından mövqelərini yaxşılaşdırmasını bir sıra amillərlə əlaqələndirdi: "Bunun başlıca səbəbi bu sahədə görülən işlərlə bağlıdır. Məsələ ondadır ki, son illər ölkədə turizmin inkişafı ilə bağlı görülən işlər xaricdən turistlərin cəlbinə öz təsirini göstərir. Nəzərə almaq lazımdır ki, bir sıra ölkələrdə sərgilər, Azərbaycan günləri təşkil edilir. Belə tədbirlər sayəsində xarici ölkələrdə Azərbaycana maraq artır. Bu da həmin dünya dövlətlərindən ölkəmizə turist axınına stimul verir. Səbəblərdən biri bununla bağlıdır. Digər tərəfdən, Rusiyanın Gürcüstana tətbiq etdiyi məlum sanksiyalar da buna öz təsirini göstərib. Həmin sanksiyalardan sonra Rusiyadan olan turistlər ya Türkiyəyə üz tutur, ya da Azərbaycana. Deməyim odur ki, bu kimi siyasi məsələlərin də bunda müəyyən rolu var. Yəni bütün bunlar sözügedən göstəricilərə öz təsirini göstərir. Bununla belə, turizmlə bağlı prosedurların sadələşdirilməsi bu məsələdə vacib rol oynayıb. Məsələ ondadır ki, vizaların sadələşdirilməsi, onlayn vizanın alınması turistlərin ölkəyə gəlməsini asanlaşdırır. Çünki bir sıra ərəb ölkələrindən gələn turistlərə hava limanında vizanın verilməsi buna çox müsbət təsir edir. Ən nəhayət, Azərbaycanda otellərin və hostellərin sayı artır. Bu zaman ölkənin daha çox turist qəbul etmək potensialı genişlənir. Nəticədə həm rəqabət yaranır, həm də qiymətlərin aşağı düşməsinə zəmin formalaşır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan turizm sahəsində yeni bir ölkədir. Ona görə də biz birdən-birə bu sahədə sıçrayış əldə edilməsini gözləməməliyik. Yavaş-yavaş bu sahədə irəliləyə bilərik. İndiki şəraitdə turizm sahəsində rəqabətədavamlılıq reytinqində 180 ölkə arasında 71-ci yerdə qərarlaşmaq müsbət göstəricidir".

**_Vidadi ORDAHALLI_**

# Bakı polisinin əxlaqsızlıq yuvaları ilə mübarizəsinə ictimaiyyət və QHT-lər necə dəstək verir?

***Rauf Zeyni:** ”Əxlaqsızlığın qarşısının alınması istiqamətində QHT sektoru ölkənin hər bir bölgəsində, ucqar ərazilərdə belə maarifçilik işləri aparır və aparacaq”*

**Məlum olduğu kimi, paytaxtda ictimai mənəviyyat əleyhinə və milli mentalitetə zidd olan hallara qarşı mübarizə gücləndirilib. Bu məqsədlə sentyabrın 2-dən etibarən Bakı Şəhər Baş Polis İdarəsinin rəhbərliyi tərəfindən təsdiq olunan Tədbirlər Planına müvafiq olaraq, polisin səlahiyyətləri çərçivəsində konkret vəzifələr müəyyən olunaraq icraya yönəldilib.**

İdarənin yaydığı məlumatda qeyd olunur ki, əxlaqa zidd olan bütün halların forma və təzahürlərinə qarşı mübarizənin effektivliyini artırmaq üçün milli-mənəvi dəyərlərimizə uyğun olmayan davranışların, ictimai əhəmiyyət kəsb edən digər neqativ halların qarşısının alınması üçün kompleks profilaktik tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu sahədə artıq silsilə işlər görülüb. Görülən işlər çərçivəsində əxlaqsızlıq yuvaları aşkarlanaraq onlar barəsində müəyyən işlər görülüb. Qeyd edək ki, milli mentalitetə zidd olan hallara qarşı mübarizə sahəsində polislə yanaşı, media da aktiv fəaliyyət göstərir.

Maraqlıdır, ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının dəstəyi bu sahədə hansı səviyyədədir?

**Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, vətəndaş cəmiyyətləri əxlaqsızlığa, mənəviyyatsızlığa, həmçinin, insan alverinə qarşı daim mübarizə aparır:** "Məlumat üçün bildirim ki, Daxili İşlər Nazirliyi yanında İnsan Alverinə qarşı Qeyri-Hökumət Təşkilatları Koalisiyası var. Həmin koalisiyaya təxminən 15-dən artıq QHT-daxildir. Vətəndaş cəmiyyətləri tək hər hansı bir hadisə ilə bağlı deyil, ümumiyyətlə, il ərzində məhz insan alveri, əxlaqsızlığa qarşı, o cümlədən, mənəviyyatsızlığa qarşı maarifləndirmə işləri aparır. Bu istiqamətdə çoxlu tiqamətində mübarizəni gücləndirib. Koalisiyanın üzvləri də əxlaqsızlığa qarşı mübarizədə aktiv fəaliyyət göstərirlər. Vətəndaş cəmiyyətləri institutları milli mentalitetə




*”Vətəndaş cəmiyyətləri əxlaqsızlığa, mənəviyyatsızlığa, həmçinin, insan alverinə qarşı daim mübarizə aparır”*

sayda layihə, tədbirlər həyata keçirilir.

Danılmaz faktdır ki, vətəndaş cəmiyyətləri milli-mənəvi dəyərlərin qorunması istiqamətində mühüm addımlar atırlar. Bu günlərdə Bakı Şəhər Baş Polis İdarəsi əxlaqsızlığa qarşı mübarizə istiqamətində zidd olan hallara qarşı görülən işləri alqışlayır. Əxlaqsızlığın qarşısının alınması istiqamətində QHT sektoru ölkənin hər bir bölgəsində, ucqar ərazilərdə belə maarifçilik işləri aparır və aparacaq".

***Ülviyyə NAĞIYEVA***

# Şəhid zabit ailəsi Ayna Hacıyevanı Bakıxanovda yaşadığı mənzildən çıxarmaq istəyənlər məhkəmə davası açdılar

**Bir neçə ay əvvəl Bakıxanov qəsəbəsi, Yavər Əliyev küçəsi, ev 24, mənzil 42 ünvanda yaşayan şəhid zabit ailəsi Hacıyeva Ayna Cəlal qızının redaksiyamıza müraciəti haqqında məlumat vermişdik. Ayna xanım onu hazırda yaşadığı evdən bayıra atmaq istəyən şəxslərdən onu qorumağa çağırmışdı. Vətəndaş A.Hacıyevanı incidən kimlərdir və nə üçün bu işlə məşğul olurlar?**


Sabunçu (rayon) şəhər
Əhalinin Sosial Müdafiəsi Mərkəzi
VƏSİQƏ № 007317
Soyadı Hacıyeva
Adı Ayna
Atasının adı Cəlal qızı
M.Y.
Rəhbərin imzası
Verilmə tarixi "24" 03 2007 il

Şəhid ailəsinin yaşayış sahəsi ilə təmin edilməsi qüvvədə olan qanunvericiliyə müvafiq surətdə respublika hökümətinin müəyyənləşdirdiyi qaydada yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar.

Şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir. Şəhid ailəsi xüsusi mülkiyyət əsasında mənzil və ya fərdi ev alarkən notariat əməliyyatları dövlət rüsumu ödənilmədən aparılır.

İşçilərin sayı və ya ştatı ixtisar

Xanım A.Hacıyeva həyat yoldaşı Mehman Hacıyevlə illər əvvəl Rusiyanın Kaluqa şəhərində yaşadıqlarını, həyat yoldaşının hərbçi zabit olduğunu, Qarabağa ermənı təcavüzü başlayanda 2 uşaqlarını götürüb Bakıya qayıtdıqlarını, ərinin 1993-cü ilin avqustunda Zəngilan uğrunda gedən döyüşlərdə həlak olduğunu yazır. Şəhid zabit xanımının yazdığına görə, hələ Kaluqada yaşayanda Bakıdan onlara ərinin dostu, Oleq adlı bir rus tez-tez gəlib-gedərmiş. "Biz Bakıya qayıtdıqdan sonra da Oleqlə ailəvi dostluğumuz davam edirdi. Mehmanın Vətən uğrunda döyüşlərdə həlak olduğu o ağır günlərdə Oleq daim yanımızda olur, bizə arxa dururdu. 2012-ci ilin avqustunda Oleq özü də qəfil xəstələndi. İki dəfə ailə qurmuşdu. Hər nikahdan bir övladı var. Bir qız, bir oğlan atası idi. Ancaq ağır günlərində ona tək biz baxırdıq. Elə həmin dövrdə rəhmətə getdi və mən onun bütün dəfn işlərini öz üzərimə götürdüm, çünki ailə dostumuz idi...".

Ayna xanım yazır ki, Oleq rəhmətə gedəndən sonra öz yaşadıqları ev bərbad vəziyyətdə olduğu üçün yığışıb Oleqin evinə köçüblər: "Xeyli pul qoyub evi təmir etdim və birotaqlı ev nisbətən yaşamalı vəziyyətə salındı. Rahatlığımız uzun çəkmədi. Az sonra məlum oldu ki, Bakı şəhəri, 3 saylı xüsusi təyinatlı Mənzil-Kommunal Təsərrüfat Birliyinin rəisi Oleq Lixoçevin Rusiyada yaşayan oğlu ilə razılaşaraq, Oleqin digər rəsmi nikahdan olan qızından xəbərsiz evi öz yaxın adamlarının adına sənədləşdirib. İndi mənə, heç bir yaşayış yerim olmadığı halda, evdən çıxarmaq üçün təzyiq göstərirlər, özünü evin sahibi kimi təqdim edən Səfər Soltanov adlı şəxs mənə təzyiq göstərmək üçün, əslində, mənə hörmət etmiş rayon məmurlarının - başçının, prokurorun adını heç bir əsas olmadan hallandırır, cürbəcür saytlarda böhtan və şər yazdırır. Halbuki, bu məsələnin nə Sabunçu İcra Hakimiyyətinin başçısına, nə də rayon prokuroruna hər hansı aidiyyəti var".

Ayna Hacıyeva yazır: "Məni evdən çıxarmaq istəyənlərə deyirəm ki, evin təmirinə 20 min pul xərclədiyim halda, saxta sənədlərlə evə sahiblənmək istəyənlərə niyə güzəştə getməliyəm?" A.Hacıyeva deyir ki, məsələdə başçının, ya prokurorun adını hallandırmaqdansa, məhkəməyə müraciət etsinlər və məhkəmədə hər şeyi aydınlaşdıraq.

Həqiqətən də maraqlıdır ki, evin sahibi olduğunu iddia edən Səfər Soltanov haqlıdırsa, niyə xanımı evdən çıxarmaq üçün məhkəməyə müraciət etmir və qanuni yolla məsələnin həllinə nail olmaq istəmir? Bu sualın dəqiq cavabını da Ayna xanım özü verir: "Məhkəməyə müraciət etməkdən qorxurlar. Çünki Oleqin qanuni nikahdan iki övladı qaldığı halda, onlar Oleqin tək oğlan övladı ilə sövdələşiblər. İndi qorxurlar ki, məhkəməyə müraciət etsələr, Oleqin qız övladı da ortaya çıxaraq onların etdiyi qanunsuzluğu ifşa edəcək və hər hansı sənəd əldə ediblərsə, məhkəmə o sənədi ləğv edəcək. Bax, burada bəzi şeylər aydınlaşır. Görünən odur ki, Oleqin hər iki övladının vərəsəlik hüququ nəzərə alınmadan evi öz adına sənədləşdirənlər nə həmin sənədləri üzə çıxara, nə də məhkəməyə müraciət edə bilirlər. Qanuni həll yolunda perspektiv görmədikləri üçün, şantaj və təzyiq yolu seçir, rayon rəhbərlərinin adını əsassız şəkildə hallandırmaqla evi tərk etməyə məcbur etmək istəyirlər".

Burada məsələnin mənəvi tərəfi də var. Ayna Hacıyeva kimi şəhid ailələrinə dövlət, cənab Prezident bütün vasitələrlə himayə göstərdiyi halda, canını Vətənə fəda etmiş şəhid zabitin həyat yoldaşını köməksiz vəziyyətdə evdən bayıra atmaq heç bir vicdan normasına uyğun gəlmir.

**Dünən redaksiyamızla əlaqə saxlayan Ayna Hacıyeva ona qarşı adıçəkilən şəxslərin Sabunçu Rayon Məhkəməsində artıq iddia qaldırdıqlarını və prosesin başladığını bildirdi.**

Yaxın günlərdə məhkəmənin gedişi ilə bağlı məlumatlar verəcəyik. Oxucular üçün də maraqlıdır ki, Oleq dünyasını dəyişəndən sonra onun iki qanuni övladının birindən rəsmi icazə almadan onun evi necə və kimin adına özəlləşdirilib? Məhkəmədə Oleqin digər övladının pozulmuş hüququnun bərpasına necə baxılacaq? Şəhid ailəsi Aynanın taleyi necə olacaq? Şəhid ailəsi illərlə yaşadığı evdən necə çıxarılacaq? Qəzet və saytımızı izləyin.

***Namiq QULİYEV***

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

**XX əsrin 70-80-ci illərində Azərbaycan nefti dünyada neftçıxarma və neft-qaz emalı sənayesinin inkişafında, SSRİ kimi nəhəng ölkənin sənayeləşməsində həlledici rol oynayıb. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə respublikamızda neft emalı, neft-kimya sənayesinin müxtəlif inkişaf mərhələlərində çox mühüm qərarlar qəbul edildi.**

# Azərbaycan neft-qaz sənayesində qazma işlərinin modernləşməsi yeni neft strategiyasının mühüm tərkib hissəsidir

1970-1980-ci illər məhz Azərbaycanın neft emalı, neft-kimya sənayesinin yenidən qurulması və modernləşdirilməsində əsaslı dönüş mərhələsi kimi dəyərləndirilir. Məhz o dövrdə neft emalı, neft-qaz, neft kimya sənayesində geridə qalmış texnoloji proseslər, mənəvi və fiziki baxımdan köhnəlmiş avadanlıqlar milyonlarla vəsait hesabına texnoloji üstünlüklərə malik yeniləri ilə əvəz olundu. 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi, neft və qaz sənayesi də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir və bu da ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin xüsusilə dəniz neftinin hasilatının inkişaf tarixində yeni mərhələ başlayır. 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyi (İB) yarandı və SSRİ Neft Sənayesi Nazirliyi Xəzərdə Azərbaycan neftçilərinin dəniz şəraitində iş aparmaq təcrübəsini nəzərə alaraq Xəzərin bütün sektorlarında (həmin ildən Xəzər sektorlara bölündü) geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasını Azərbaycan neftçilərinə həvalə etdi.

Bu tarixə kimi Xəzər dənizində istifadə olunan texniki vəsait yalnız dənizin dərinlikləri 40 m-ə qədər olan sahələrdə işləməyə imkan verirdi. Həmin dövrdə Xəzərin Azərbaycan sektorunda 40 m-dək dərinlikdəki perspektivli sahələrdə, demək olar ki, bütün neft-qaz yataqlarının hamısı aşkar olunmuşdu. Dənizdə neft və qazın hasilatının artırılması daha böyük dərinliklərdə yatan neft və qaz yataqları ilə bağlı idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində 70-80-ci illərdə Azərbaycana 75 növdə 400-dən çox ağır yükqaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirildi. Xəzərdə 2500 ton gücündə "Azərbaycan" kran gəmisi işə başladı. Bundan başqa, ilk vaxtlarda dənizin 70 m. dərinliyində olan sahələrdə geoloji-kəşfiyyat işləri aparmaq üçün "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m. dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. tona (şərti yanacaq) çatdırıldı. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatdı və onlardan istifadə nəticəsində indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 m. dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar kəşf olundu.

Məhz ulu öndərin bilavasitə iştirakı ilə dənizdə perspektivli neft yataqlarının kəşfiyyat işləri xeyli genişlənərək sürətləndi. Xəzərin Azərbaycan sektorunda yeni dəniz neft-qaz kondensat yataqları - "Bahar" (1968), "Səngəçal-Duvannı-dəniz" (1969), "Bulla-dəniz" (1975-ci il) yataqlarının açılışı və istismara başlanması reallaşdırıldı. 1970-ci ildə dəniz neftinin çıxarılması maksimum həddə yüksələrək 12,9 milyon tona çatdı.

1971-ci il martın 28-də Azərbaycanın yeraltı sərvətlərinin istismarının başlandığı andan milyardıncı ton neft çıxarıldı. Bu, ölkəmizin neft sənayesinin tarixinə şanlı səhifə kimi yazıldı. Bu əlamətdar hadisə münasibətilə aprelin 21-də M.F.Axundov adına Opera və Balet Teatrında ulu öndər Heydər Əliyevin iştirakı ilə təntənəli yığıncaq keçirildi.

Məhz o dövrdə Sumqayıtda üzvi yarımməhsullar zavodunda ilk dəfə olaraq Bakı neftinin benzin funksiyalarının ən mühüm kimya xammalı olan benzol almağa imkan verən platforminq prosesi həyata keçirildi. 1979-89-cu illərdə dənizdə, 200 metr dərinlikdə ümumi resurs ehtiyatı 700 milyon ton neft və 200 milyard kubmetr qaz olan "Günəşli" (1979-cu il), "Çıraq" (1985-ci il), "Azəri" (1988-ci il) və "Kəpəz" (1989-cu il) kimi 4 yeni çoxlaylı neft yatağı açıldı. 1980-ci ildə Fransanın "Seret" firması tərəfindən düzəldilmiş "Ə.Əmirov adına xüsusi gəmi 1" yeni struktur-kartirovka qazma gəmisi istismara verildi. Burada ilk dəfə olaraq şlanq-kabel qazması və hidroloji tədqiqatlar üçün avadanlıq quraşdırıldı. 1981-ci ildə ilk dəfə olaraq yarısalınan qazma qurğusunun köməyi ilə 200 metr dərinlikdə olan qazma həyata keçirildi. 1985-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Dərin Sulu Özüllər Zavodu ilk məhsulunu buraxdı. 1989-cu il ildə "Xəzər Dəniz Neft Donanması"nın tərkibinə texniki və naviqasiya məqsədləri, 300 metrədək sualtı dalğıc enmələri üçün ən müasir avadanlıq və dinamik pozisiyalaşdırma sistemi ilə təchiz olunmuş "Akademik Tofiq İsmayılov" unikal dalğıc gəmisi daxil oldu.



Qeyd olunan dövrdə xarici texnologiyalar bazası əsasında inşa edilmiş "Xəzər", "Xəzərdənizneft" üzən qazma qurğularının alınması, xarici şirkətlərlə "Şelf" seriyalı dəniz qazma qurğularının quraşdırılması mümkün oldu. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Şelf-2", "Şelf-3", "Şelf-4", "Şelf-5" qazma qurğuları, habelə onların işini təşkil etmək məqsədilə "Süleyman Vəzirov", "İsrafil Hüseynov" kimi borudüzən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər və başqa texniki vasitələr respublikaya gətirilmişdi.

Təbii ki, bütün bunların tətbiqi Xəzər zonası üzrə neft-qaz ehtiyatlarının kəşfində mühüm rol oynadı. Məhz bu qurğuların sayəsində "Çıraq", "Azəri", "Günəşli", "Kəpəz" və s. kimi iri yataqlar kəşf edildi. Ötən əsrin 70-ci illərinin sonlarında SSRİ-də yeganə olan 400 milyon ABŞ dollarına alınmış Dərin Özüllər Zavodunun tikintisinə başlandı. Sonralar bu kompleks Xəzər dənizində dərin neft və qaz yataqlarının kəşfi üçün müasir dərin özüllər bloku istehsal etdi.

Görülən işlərin, həyata keçirilən tədbirlərin sayəsində o illərdə neft hasilatı getdikcə artırdı. 1970-ci illərin əvvəli üçün ildə 17,3 milyon ton neft hasil edilməsi bunun əyani sübutu idi.

O dövrdə aparılan yenidənqurma işləri respublikamızın neft sənayesinin infrastrukturunun və neft emalının inkişafına ciddi təkan verdi. Belə ki, 1976-cı ildə Yeni Bakı Neftayırma Zavodu, 1982-ci ildə Bakı Neftayırma Zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusu işə salındı. 1983-cü ildə Qroznı-Bakı neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan Sovet İttifaqının vahid neft kəmərinə qoşuldu. Neft emalı sahəsinin yenidən qurulması üçün irimiqyaslı layihələr həyata keçirildi. Yeni Bakı Neft Emalı Zavodunda ("Azərneftyanacaq") ELOU-AVT-6 qurğusu istismara verildi. Bu qurğu o dövr üçün ən müasir, yüksək istehsal gücünə malik kombinə edilmiş atmosfer-vakuum qurğusu idi. 1979-cu ildə həmin zavodda Qərb texnologiyası üzrə müasir katalitik riformiq qurğusu da quraşdırıldı. Qurğu yüksək oktanlı etilləşdirilməmiş avtomobil benzini buraxmağa imkan verdi.1981-ci ildə Bakı Neft Emalı Zavodunda (hazırkı Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, "Azərneftyağ") ikinci analoji ELOU-AVT-6 kompleksi işə salındı. Məhz ulu öndərin əsaslı yenidənqurma proqramının həyata keçirilməsi nəticəsində Bakı neft emalı zavodları texniki təchizatına görə o dövrdə dünyada mövcud profilli müəssisələrin səviyyəsinə yüksəldi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızın neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. 1975-ci ildə ümumi neft və qaz hasilatı şərti yanacaqla 27,1 milyon tona çatdırıldı. Sovet İttifaqı dağılanadək dənizin Türkmənistan, Qazaxıstan və Rusiya sektorlarında da səmərəli kəşfiyyat işləri aparan Azərbaycan neftçiləri dənizdə 350-dən çox struktur aşkar etdilər. Onlar Xəzərin Azərbaycan sektorunda yeni yataqlarla yanaşı, dənizin Türkmənistan sektorunda "Şərqi Livanov", İ.M.Qubkin adına, Barinov adına, LAM və "Çələkənyanı günbəz", Rusiya sektorunda "İnçixe-dəniz 1" və "İnçixe-dəniz 2" neft yataqlarını və Qazaxıstan sektorunda bir neft yatağını kəşf etdilər.

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin sovet dövrü təkcə istehsalat nailiyyətləri ilə deyil, həm də ulu öndərimizin neftçilərə böyük qayğısı ilə xarakterizə edilir. Ulu öndərin respublikaya rəhbərliyi illərində neftçilər üçün tikilən mənzillərin sayı rekord həddə çatmışdı. 70-ci illərin sonlarında neftçilərin mənzilə ehtiyacı 95 faizdən də çox ödənilmişdi.

1970-1988-ci illərdə Azərbaycan neftçiləri ("Xəzərdənizneftqaz" İstehsalat Birliyi) tərəfindən Xəzər dənizinin bütün sektorlarında geoloji-kəşfiyyat işləri aparılmış, 350-yə qədər perspektivli struktur aşkar edilmişdi.

1975-ci ildə "Bulla-dəniz" yatağının, 1980-ci ildə isə "Günəşli" yatağının dayazsulu hissəsinin işlənilməsinə başlandı. 1984-cü ildə Bakıda Dərin Özüllər Zavodu tikilib istifadəyə verildi. 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri" yatağı kəşf edildi. 1988-ci ildə "8 Mart" yatağının işlənilməsinə başlandı, "Kəpəz" yatağı aşkar edildi.

1985-ci ildən sonra SSRİ-nin sosial-iqtisadi həyatında gedən proseslər, təsərrüfat mexanizminin, iqtisadi həvəsləndirmənin təkmilləşdirilməsi, müəssisələrin müstəqilliyinin artırılması ilə bağlı həyata keçirilən məntiqi ardıcıllığı tam olmayan tədbirlər neft sənayesinin inkişafında sabitliyi təmin etməmiş, əksinə, onun problemlərini daha da dərinləşdirmişdi. Şübhəsiz, 80-ci illərin ikinci yarısında həm SSRİ, həm də Azərbaycan rəhbərliyinin səriştəsizliyi, rəhbərlikdə təmsil olunan başsız "başçılar"ın avantürist qərarları respublikamızda neft sənayesinin tənəzzülünə səbəb olmuşdu. Ötən əsrin 80-ci illərində quruda 4,8 milyon ton neft çıxarılıb ki, bu da 1950-ci il səviyyəsindən 8,5 milyon ton az idi, dənizdə isə 1980-ci ildə 8,2 milyon ton çıxarılmışdı ki, bu da 1970-ci il səviyyəsindən 0,5 milyon ton çox idi.

1990-cı ildə quruda 2,5 milyon, dənizdə 7,3 milyon ton neft istehsal edilmişdi ki, bu rəqəmlər də müvafiq olaraq 1980-ci il səviyyəsindən 2,3 milyon ton və 0,9 milyon ton az idi. Ümumiyyətlə, neftçıxarma sənayesində istər quruda, istərsə də dənizdə hasilatın orta illik artımının aşağı düşməsi çox qeyri-bərabər olub. XX əsrin sonuncu onilliyində respublikada neft istehsalının aşağı düşmə faizi 1990-cı ildə daha çox olub. Mütəxəssislərin fikrincə, böyük potensiala malik Abşeron yataqlarında işlərin canlandırılması diqqət mərkəzində olmalıdır. Üzdəniraq yenidənqurma illərində və müstəqillik dövrünə qədərki (1986-1991-ci) illərdə isə neft və qaz hasilatının aşağı düşmə tempi səngiməmiş, əksinə bu proses daha da sürətlənmişdi. Belə ki, neft hasilatı 42,4%, qaz hasilatı 56% enmişdi. Bu illər təminat-təchizat bazasının yoxsulluq dövrü kimi də yadda qalıb.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı respublikamızın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin təməlini qoydu. 1994-cü il sentyabrın 20-də Bakıda, "Gülüstan" sarayında "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" (suyun dərin hissəsi) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Qərbin neft şirkətləri ilə bağlanmış Saziş Azərbaycan Respublikasının müstəqil tarixinin yeni səhifəsini açdı. Bu gün öz geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən "Cənub Qaz Dəhlizi"nin seqmentləri olan TANAP, TAP kimi iri transmilli layihələrin Azərbaycanın təşəbbüsü, siyasi iradəsi, əzmi ilə reallaşdırılması, "Şahdəniz-2" layihəsinin gerçəkləşdirilməsi də məhz əsası "Əsrin müqaviləsi" ilə qoyulan böyük neft strategiyasının məntiqi davamıdır.

Qətiyyətlə demək olar ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli neft strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi bundan sonra da müstəqil Azərbaycanın güclənməsinə, respublkamızın sosial-iqtisadi tərəqqisinə, xalqımızın rifah halının daha da yüksəlməsinə böyük töhfələr verəcək. Bu günlərdə xalqımızın Azərbaycan neft sənayesinin tarixində mühüm və əlamətdar hadisənin - respublikamızda iki milyardıncı ton neftin çıxarılmasının sevincini yaşaması bunun bariz nümunəsidir.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Mətbuat Şurası və "SOCAR-AQŞ" MMC-nin "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi münasibətilə keçirdikləri birgə müsabiqəyə təqdim edilir.**

# 90-cı illərdən evlərin künc-bucağında qalmış ziyanlı dini ədəbiyyatları necə üzə çıxarmalı...

***Hacı Təyyar Hüseynli:** "Hesab edirəm ki, ilahiyyatçılar da başda olmaqla, hər bir vətəndaş evlərdən zərərli dini ədəbiyyatın yığışdırılmasına, onların məhv edilməsinə nail olmaq üçün aktiv fəaliyyətə keçməlidir"*

**Cəmiyyətin düşüncəsinə zərbə vuran amillərdən biri zərərli dini ədəbiyyatdır ki, bir neçə il əvvələ qədər belə nümunələr həm ölkəmizdə nəşr edilirdi, həm də xaricdən gətirilirdi. Lakin son illər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, eləcə də hüquq-mühafizə orqanlarının həyata keçirdikləri mütəşəkkil tədbirlər nəticəsində belə kitabların, broşürların nəşri dayandırıldı, həmçinin də onların ölkəyə gətirilməsinə qadağa qoyuldu.**

"Bu gün ölkəmizdə zərərli dini ədəbiyyat yoxdur" deyə bilmərik. Məlumdur ki, həm müxtəlif dini sektalar bu cür ədəbiyyatı pulsuz olaraq əhaliyə paylayırdı, eyni zamanda, ayrı-ayrı naşirlər zərərli ədəbiyyatı nəşr edib satışa buraxırdı. Sözsüz ki, dini maariflənmə sahəsində zəif olan insanlar bu kitabları alıb oxuyur, öz kitab rəflərində saxlayırdılar. Zərərli dini ədəbiyyatın insan təfəkkürünə, həyat tərzinə, dünyagörüşünə vurduğu zərbəni heç nə ilə müqayisə etmək olmaz.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov "Trend"ə müsahibəsində fərdi evlərdə zərərli dini ədəbiyyatın olduğunu istisna etməyib. "Son illərdə dünyada baş verən proseslər bu istiqamətdə bizim həssaslığımızı daha da artırıb. Artıq ölkədə fəaliyyət göstərən bütün mətbəələr qanunvericiliyin tələbinə uyğun, Dövlət Komitəsinin razılığı olmayan hansısa dini ədəbiyyatı nəşr etmir. Amma buna baxmayaraq, dini ekstremistlər qaçaq yollarla ölkəyə zərərli dini ədəbiyyat gətirməyə çalışırlar. Həm də bu illər ərzində zərərli dini ədəbiyyatın toplanması istiqamətində aparılan işlərə baxmayaraq, 90-cı illərdə, eləcə də 2000-ci illərin əvvəllərində nəşr olunmuş bəzi zərərli dini ədəbiyyatların fərdi evlərdə qalma ehtimalı var" - deyə N.Məmmədov qeyd edib.

Fərdi evlərdə saxlanan zərərli dini ədəbiyyatın üzə çıxarılması üçün nə etmək lazımdır?

Tanınmış ilahiyyatçı Hacı Təyyat Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, son illər Dövlət Komitəsi zərərli, ziyanlı, ictimai fikri çaşdırmağa xidmət edən, dini fikirləri qarışdıran, müxtəlif insanların subyektiv fikrini əks etdirən ədəbiyyatın tamamilə yığışdırılması istiqamətində səmərəli işlər görür. "Zərərli siyasi fikirləri islam dininin içinə qatıb cəmiyyətə çatdırmaq istəyən, dinin özünün içində "mikrob" olan bəzi qüvvələr öz ziyanlı fikirlərini ədəbiyyat şəklində həm Azərbaycanda, həm də dünyanın hər yerində yaymağa çalışırlar. Bu, "parçala, hökm sür" çürük siyasətinə uyğun olan iyrənc, zərərli tendensiyadır. Ona görə bunu "iyrənc" adlandırıram ki, onlar insanların düşüncəsini zəhərləməyi hədəfə alıblar. Bütövlükdə isə dinin özü saf, pak, bəşəriyyət üçün xeyirli olduğu halda, nə üçün həmişə "zərərli ədəbiyyat" məsələsi aktual olmalıdır? Ədəbiyyat sözünün kökündə "ədəb" ifadəsi var, ədəb isə ümumbəşəri dəyərlərə söykənən, insanlıq mühitində, insani dəyərlər sistemində xas olan bir keyfiyyətdir.

Bilirsiniz ki, Dövlət Komitəsi zərərli dini ədəbiyyatın cəmiyyətdə yayılmasının qarşısının alınması üçün çox mühüm tədbirlər həyata keçirib. Qurum bir vaxtlar mövcud olan zərərli ədəbiyyatın nəşrinin dayandırılmasına nail olub. Yəqin yadınızdadır, bir sıra hallarda müəyyən qüvvələr bu zərərli ədəbiyyatı pulsuz paylayırdılar, hətta evlərin qapısını döyüb o kitabları "hədiyyə" edirdilər. Qeyri-ənənəvi ideoloji prinsiplərə xidmət edən bu ədəbiyyat nümunələri, nəşrlər vətəndaşlarımızın evlərinə də ayaq açırdı.



*"Zərərli siyasi fikirləri islam dininin içinə qatıb cəmiyyətə çatdırmaq istəyən, dinin özünün içində "mikrob" olan bəzi qüvvələr..."*

Bir ilahiyyatçı kimi vaxtilə bunun zərərli tərəfləri haqqında danışırdım. Bu ədəbiyyat xaricdən maliyyələşən qeyri-statuslu sektalar, qurumlar tərəfindən nəşr edilirdi. Bu zərərli nəşrlərdə insanları kütləvi şəkildə idarə etmək prinsiplərini təbliğ edən xüsusi təsir dairələri vardı, təbliğat maşınları işə düşmüşdü. Bu gün biz sivil cəmiyyətdə, çox güclü dövlətdə yaşayırıq və əksər evlərdə bu kitablardan ola bilər. Ola bilsin, o insanların çoxu heç bu kitabları oxumayıb da, sadəcə, götürüb rəfə qoyub. Vətəndaşlarda belə nəşrlər varsa, onlar özləri ilk növbədə həmin nəşrləri məhv etməlidirlər. Bu nəşrlərlə bağlı çağırışlar insanların azad, sərbəst mütaliə etməsinin, onların informasiya almasının qarşısının alınması kimi başa düşülməməlidir, əksinə, bu, dövlətimiz, cəmiyyətimiz üçün çox vacibdir. Əlbəttə, hər bir vətəndaşın dini dünyagörüşü sağlam olmalıdır. Zərərli dini ədəbiyyatın insanların özlərinə çox böyük ziyanı var. Onlar dini ədəbiyyat oxumaq istəyirlərsə, dövlətin müəyyən etdiyi, ekspertizadan keçən kitablar oxusunlar".

H.T.Hüseynli hesab edir ki, evlərdən zərərli dini ədəbiyyat nümunələrinin, bu cür nəşrlərin yığışdırılması üçün vətəndaşlarımız aktivlik göstərməlidirlər. Onun sözlərinə görə, birinin qonşusunda, qohumunda belə bir ədəbiyyat varsa, həmin adam maarifçilik işi aparmalı, onun zərərini izah etməli və həmin kitabların məhv edilməsinə çalışmalıdır. Bundan başqa, Dövlət Komitəsi, eləcə də dini icmalar bununla bağlı vətəndaşlarla maarifçilik işləri aparmalıdır. "Bu gün vətəndaşların evindən zərərli dini ədəbiyyatın yığışdırılması, onların məhv edilməsi üçün ölkəmizdə fəaliyyət göstərən dini icmaların da sədrləri, nümayəndələri Dövlət Komitəsinə dəstək göstərməlidirlər. Azərbaycan tolerant ölkədir və burada müxtəlif dinlərin nümayəndələri yaşayır, sərbəst şəkildə öz dinlərini qoruyurlar. Biz zərərli dini ədəbiyyatdan danışanda yalnız islam dininə aid edilən ədəbiyyatı nəzərdə tutmuruq, burada söhbət həm də xristian və digər dinlərə aid nümunələrdən gedir. Xristianlıqla, "Krişna şüuru", ümumiyyətlə, bütün dinlərlə bağlı dini-ideoloji bilgiləri təbliğ edən ədəbiyyat sonuncusuna qədər incələnməli, çox yetkin alimlərin məqsədəuyğun bildiyi ədəbiyyat cəmiyyətin maariflənməsinə xidmət etməlidir. Mən də təsdiqləyirəm ki, bəli, Azərbaycanda bir çox evlərdə zərərli, zəhərli, məqsədyönlü siyasi qatqılı, bizim cəmiyyətimiz üçün ziyanlı olan, bir cümləsi belə oxunmağa yararlı olmayan dini ədəbiyyat nümunələri var. Bu zərərli dini ədəbiyyat nümunələri insanlardan yığışdırılmalı, onlara sağlam dini ədəbiyyat verilməlidir. Hesab edirəm ki, ilahiyyatçılar da başda olmaqla, hər bir vətəndaş evlərdən zərərli dini ədəbiyyatın yığışdırılmasına, onların məhv edilməsinə nail olmaq üçün aktiv fəaliyyətə keçməlidir" - deyə o qeyd etdi.

***İradə SARIYEVA***



# Yaxınlıqdakı ağac və yaşıllıqların məhv olmasına laqeyd qalan böyük obyekt sahiblərinin adı rəsmən çəkiləcək

**Dünən "Yaşıl Bakımız" təşəbbüs qrupu adından maraqlı bəyanat yayılıb. Bəyanatda deyilir: "Bakı şəhərinin daha da gözəlləşməsi üçün müxtəlif qurumlar, o cümlədən, iş adamları, müxtəlif idarələr, ayrı-ayrı vətəndaşlar tərəfindən işlər görülür. Paytaxtda yaşıllıqların artırılması isə yaşadığımız şəhərin ekologiyasina, özümüzün, yaxınlarımızın sağlamlığına birbaşa təsir edir.**

Paytaxt sakinləri kimi ötən gün müşahidə etdiklərimiz isə bu işlərə, ümumilikdə isə müsbət dəyişikliklərə biganə olan, yalnız öz maraq və mənfəətlərini güdənlərə rast gəldik. Hamının çox yaxşı tanıdığı bir neçə iri və tanınmış obyektlərin qarşısındakı vəziyyət heç də ürəkaçan deyil. Çox təəssüflər olsun ki, böyük gəliri olan, heç də maddi sıxıntılar çəkməyən bu obyekt sahibləri obyektlərinin qarşısındakı ağac və kollara, yaşıl örtüyə biganə yanaşırlar.Canlı bitkilərə zülm edirlər. Onlara diqqət göstərib ara-sıra sulamaq, qulluq etmək nə əsl insanlıq olmazdımı?

**Axı kiminsə mağazasının və ya obyektinin qarşısını başqası gəlib etməməlidir, axı hər şeyi dövlət hesabına etmək mümkün deyil. Bəs vətəndaşlıq borcu? Belə insanları hamımız tanımalı və qınaq obyektinə çevirməliyik.**

Öz müşahidələrimizi və araşdırmalarımızı davam etdirərək sonrakı yazılarda artıq bu kimi obyektləri və onların sahibləri barədə ətraflı məlumat verəcəyik".

# Məktəb bufetləri ərzaqla necə təmin olunur, bufetlərə təsadüfi ərzaqların düşmək imkanı varmı?

**Bugün tam rasionlu qidaların təqdim olunduğu bufet və yeməkxanaların yoxluğu Azərbaycanda məktəblərin az qala əsas problemlərindən birinə çevrilib. Bu isə həm şagirdlər, həm də valideynlər üçün ciddi narahatlıq yaradır. Əksər hallarda aşağı sinifdə oxuyan şagirdlər yeməyi evdən gətirir, yuxarı sinif şagirdləri tənəffüslərdə çipsilər və energetik içkilər almaq üçün yaxınlıqdakı mağazaya gedirlər.**

Bütün bunlar isə böyüyən nəslin sağlamlığına təsir edir və gələcəkdə xeyli sayda xəstəliyin yaranması ilə nəticələnə bilər. Valideynlər övladlarının məktəbdə normal şəkildə qidalanması üçün pul ödəməyə hazırdırlar. Lakin hələ də məktəblərdə tam rasionlu naharın təşkili üçün şərait yaradılmayıb. Təbii ki, məktəb bufetlərinin hər yerdə olmadığını demək olmaz. Lakin normal şərait Bakı şəhərində yerləşən çox az məktəbdə təşkil olunub. Şəhərin mərkəzində yerləşən, təmirdən çıxmış məktəblərin öz yeməkxanası və menyusu var.

Qeyd edək ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun 28.2. bəndinə əsasən, təhsil müəssisələrində iaşə xidməti təhsil müəssisəsi ilə iaşə xidməti göstərən hüquqi və fiziki şəxslər arasında bağlanan müqavilə əsasında həyata keçirilir. Yəni bu, özəl sahibkarlara məktəb yeməkxanalarını icarəyə götürməyə və orada yeməklər hazırlamağa imkan verir. Elə bu səbəbdən də bufetləri icarəyə götürən şirkətlər əməkdaşlıq etdikləri şəxslərlə birgə iş görürlər. Belə ki, həmin şəxslər evlərdə hazırladıqları peraşki, sobada bişirilmiş şirniyyatlar, blinçik, pitza və digər təamları məktəb bufetində satırlar. Şagirdlərin çoxu da həmin təamlardan almağa üstünlük verir.

Maraqlıdır, məktəb bufetlərinin ərzaqla təminatı hansı səviyyədədir?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, bufetlərdə təhlükəli qidaların satışı inkar olunmur: "5 il əvvəl məktəb bufetləri üçün standart hazırlandı və bufetlərə müəyyən məhdudiyyətlər qoyuldu. Burada qazlı içki, bezi kolbasalar və energetik içkilərin satışı qadağan olundu. Amma məktəb və bağçaların bufetləri hələ də baxımsız vəziyyətdədir. Onlar mərkəzləşdirilmiş şəkildə təmin olunmurlar. Buna görə də kim necə gəldi mal gətirərək, onun satışını həyata keçirir. Bufetlərin böyük hissəsi ayrı-ayrı sahibkarlara qanunsuz icarəyə verilib. Onlar məktəb direktorları ilə əlbir işləyir, özlərinə sərf edəni edirlər. Ümumiyyətlə, böyük tənəffüs uşaqların qidalanmasına şərait yaratmır. Həmişə təklif etmişəm ki, məktəb dəhlizlərinə avtomatik meyvə satan aparatlar qoyulsun. Bu, sahibkara da xeyir verəcək. Hər şagird 20 qəpik ödəməklə təzə meyvə yeyəcək".

Onun sözlərinə görə, kimsə bufetlərdəki qiymətlərə müdaxilə edərək, qiymətlərin aşağı salınmasını tələb edə bilməz. Valideyn komitələri bu vəziyyətə diqqət yetirə bilərlər. Amma heç kim inzibati yollarla qiyməti aşağı-yuxarı edə bilməz. Bufeti kim qanunsuz işlədirsə, qiyməti də o müəyyən edir.



***Eyyub Hüseynov:** "Bufetlərin böyük hissəsi ayrı-ayrı sahibkarlara qanunsuz icarəyə verilib, onlar məktəb direktorları ilə əlbir işləyir..."*

***Nadir İsrafilov:** "Ümumtəhsil müəssisələrindəki bufetlərdə sağlamlıqla bağlı normalar gözlənilmir"*

Həmsöhbətimiz onu da vurğuladı ki, MDB ölkələrinin əksəriyyətində məktəblər qida ilə mərkəzləşdirilmiş qaydada təmin olunurlar: "Ayrı-ayrı qida ixracçıları ilə müqavilə bağlanır və qidalar nəzarət altında olur. Qidanın təhlükəsizliyi tam təmin olunur. Məktəbdə təhlükəli qida aşkar olunarsa, məktəb rəhbərliyi məsuliyyət daşıyır".

Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, təhsil eksperti Nadir İsrafilov isə bildirdi ki, Sovet dönəmində məktəb bufetlərini Məktəb İaşəsi adlı qurum təmin edirdi. Ancaq indi məktəb bufetlərinin məktəblə əlaqəsi yoxdur: "Bufetlər üçün lazım olan qidalar özəl şirkətlər tərəfindən təmin olunur. Özəl şirkətlərin məktəblə əlaqəsi olmadığı üçün, onlar istədikləri məhsulu bufetlərə verirlər. Məktəbin işi tək şagirdlərə bilik vermək deyil, eyni zamanda, uşaqların sağlıqlı qidalanmasını diqqətdə saxlamalıdır.

Valideynlərin məktəb bufetlərinə etibar etməməsi şagirdlərin çantasının ağırlaşmasına səbəb olur. Çarəsiz qalan valideynlər ağır kitablarla yanaşı, şagirdlərin çantasına su və onların qidalanması üçün müəyyən bişmə qoyurlar".

Həmsöhbətimiz onu da vurğuladı ki, 2011-ci ildə Nazirlər Kabinetinin təhsil müəssisələrində gigiyenik qaydalarla bağlı xüsusi göstərişləri var. Əlbəttə, bunlar ilk növbədə məktəbdə təhsil alan şagirdlərin sağlamlığının qorunmasına yönləndirilib: "Təəssüf ki, ümumtəhsil müəssisələrindəki bufetlərdə bu normalar gözlənilmir. Yağda qızardılmış, iy verən, hətta tez xarab olan məhsullardan istifadə olunur. Hesab edirəm ki, bu sahədə yoxlamaları dayandırmaq yox, əksinə, ciddi şəkildə həyata keçirmək lazımdır. Çünki qidalanma birbaşa təhsilə təsir göstərən amillərdən biridir.

Azərbaycandakı 4500-dən çox ümumtəhsil məktəbində şagirdlərə bu xidməti göstərən bufetlərdə, demək olar ki, sağlamlığa birbaşa zərər vuran məhsullar satılır. Oradakı məhsullar heç bir səhiyyə qurumu tərəfindən yoxlanılmır. Bu məsələ xüsusilə diqqətdə saxlanmalı və qadağan olunmuş qidaların, içkilərin bufetlərdə satılmasına icazə verilməməlidir"

Ekspertin sözlərinə görə, bu məsələdə valideyn və müəllim assosiasiyaları xüsusi məsuliyyət daşıyır: "Hazırda özəl şirkətlər məktəb bufetlərini qidalarla təmin edirlər. Həmin şirkətlərin fəaliyyətinin nə dərəcədə leqal və peşəkar olması, təbii ki, şübhə altındadır. Burada ən ciddi yük və məsuliyyət məktəblərdə fəaliyyət göstərən valideyn-müəllim assosiasiyalarının üzərinə düşür. Çünki onlar birbaşa olaraq qanunvericilik çərçivəsində məktəb bufetlərində satılan məhsulların sertifikatına, keyfiyyətinə, son istifadə tarixinə nəzarət etməlidirlər. Təəssüflər olsun ki, bu qurumların fəaliyyəti yalnız kağız üzərindədir. İndiyə kimi həmin assosiasiyaların məktəb bufetlərinə satılan hansısa zərərli qidanın satışına qadağa qoyduğunu müşahidə etməmişik. Açığı, bufetlər məktəb direktoruna və aidiyyəti qurumlara müəyyən məbləğ ödədiyi üçün onların dırnaqarası fəaliyyətinə göz yumulur. Bu məsələ xüsusilə gündəmdə saxlanmalı və bufetlər nəzarətə götürülməlidir. Fəaliyyəti qənaətbəxş olmayan müəllim-valideyn assosiasiyaları buraxılmalı və həqiqətən də vətənini sevən, şagirdin, təhsilin gələcəyini düşünən şəxslər rəhbərliyə cəlb edilməlidirlər".

**Günel CƏLİLOVA**

# Sumqayıtda Qarabağ atına ilk heykəl - heykəlin hansı qeyri-adi xüsusiyyətləri olacaq...

## Vaqif Nəzirov: "İndiyə qədər bizdə Qarabağ atlarına heykəl qoyulmayıb"

**Dünyada Azərbaycan brendi olaraq tanınan, qəbul edilən əfsanəvi Qarabağ atları sülhün və azadlığın simvolu kimi də dəyərləndirilir. Ermənistan Silahlı Qüvvələrinin Dağlıq Qarabağı işğal etməsi nəticəsində doğma torpağından didərgin düşən Qarabağ atları bu gün öz əzəli yurduna qayıdacağı günü gözləyir.**

Bu gün Qarabağ atları dünyanın ən möhtəşəm sərgi salonları, cıdır meydanlarında ölkəmizi uğurla təmsil edir. Qarabağ atının şan-şöhrəti üç əsrdən artıqdır Avropanı dolaşır.

Onu da bildirək ki, Belçikanın Ham, İngiltərənin London şəhərində Qarabağ atına heykəl ucaldılıb.

Sumqayıtın 70 illik yubileyi ilə bağlı şəhərdə Qarabağ atlarına heykəl qoyulacaq.

Qarabağ atları heykəlinin müəllifi, monumentalist rəssam, Əməkdar incəsənət xadimi Vaqif Nəzirov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda ilk dəfədir Qarabağ atlarına heykəl ucaldılacaq. Təxminən üç il əvvəl heykəlin eskizləri üzərində işə başladığını deyən V.Nəzirovun sözlərinə görə, artıq heykəlin maketi də hazırdır. "Qarabağ atları Azərbaycanın şan-şöhrətidir. Mən artıq heykəlin maketini də hazırlamışam. Mən öz üzərimə düşən işin çox böyük hissəsini görmüşəm, bircə heykəlin bürüncdən hazırlanması qalır. Mənim gördüyüm işdən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun xəbəri var, o, heykəlin fotoşəkilləri, maketi ilə tanışdır. İcra başçısı heykəlin maketini bəyənib. Təqdim etdiyim layihəyə müsbət cavab verilib. Planlaşdırılır ki, heykəlin açılışı Sumqayıtın 70 illik yubileyinə qədər yekunlaşdırılsın.



Çox arzu edərdim ki, digər əlaqədar qurumlar da heykəlin bürüncdən hazırlanma işinə dəstək versinlər və biz heykəli ucalda bilək. Heykəlin qeyri-adi cəhətləri çoxdur. Mən Yer kürəsi üzərində şaha qalxan üç Qarabağ atı təsvir etmişəm, yəni heykəl belə olacaq. Dünyada Qarabağ atlarından gözəl at yoxdur. Bu heykəlin adını "Azərbaycan irəli" qoymuşam. Burada mən həm də Azərbaycanın inkişafını, lider dövlət olmasını, sülhün, əminamanlığın, tolerantlığın, multikulturalizmin ünvanı olduğunu göstərmişəm. Ölkəmiz həmişə inkişaf edir. Qarabağ atı da həm hərəkət, həm inkişaf, həm də vətənpərvərlik simvolu kimi xarakterizə olunur. Qarabağ atları heykəli həm də Sumqayıtın yeni simvollarından biri olacaq. Bu heykəlin əsas mənası odur ki, Azərbaycan Yer kürəsi üstündə inkişaf edir, irəliyə gedir. Heykəlin şəhərin Heydər Əliyev prospekti ilə Sülh küçəsinin kəsişməsində qoyulacağı gözlənir. Bu olduqca gözəl bir məkandır. Mən heykəli kompyuterdə ora otuzdurmuşam. İndiyə qədər bizdə Qarabağ atlarına heykəl qoyulmayıb, bu işi mən görürəm, hesab edirəm ki, tezliklə Qarabağ atları heykəli ucaldılacaq. Bir neçə aydan sonra Sumqayıtın 70 illiyi olacaq. Çox istəyirəm ki, yubiley tədbirinə qədər heykəl qoyulsun".

Azərbaycanın Yer kürəsində öz inkişafına görə irəliləyən bir dövlət olduğunu deyən V.Nəzirovun sözlərinə görə, bu abidənin həm də beynəlxalq əhəmiyyəti olacaq. O vurğuladı ki, Sumqayıtda Qarabağ atlarına abidə ucaldılması həm də Qarabağ torpaqlarının Azərbaycanın əzəli-əbədi torpaqları olduğunu bir daha dünyaya bəyan edir.

### "Bu heykəlin adını "Azərbaycan irəli" qoymuşam"

V.Nəzirov həm də bu gün Sumqayıtın simvoluna çevrilən Göyərçin abidəsinin də müəllifidir. O bizimlə söhbətində onu da dedi ki, keçən il Göyərçin abidəsinin 40 yaşı tamam olub. Göyərçin abidəsinin qoyulduğu yerdə əvvəllər raketlər olduğunu deyən V.Nəzirovun sözlərinə görə, o vaxt onun təkidi ilə həmin raketlər ərazidən götürülüb və onun yerində sülh simvolu olan Göyərçin abidəsi ucaldılıb: "Sumqayıt həmişə çoxmillətli şəhər olub, burada xalqlar dostluğu hökm sürüb. Göyərçin abidəsi illərdir Sumqayıtdan dünyaya sülh, əminamanlıq ünvanlayır. Hesab edirəm ki, müəllifi olduğum Qarabağ atları heykəli də öz əzəməti, mənası ilə seçiləcək" - deyə V.Nəzirov qeyd etdi.

*İradə SARIYEVA*

# Lerikin kəndlərində ötən il tufandan yıxılmış işıq dirəkləri hələ bərpa olunmayıb

## İsfəndiyar Məmmədov: "...bir sıra elektrik dirəklərini bərpa etdilər ki, o da etibarlı deyil"

**Ötən ilin dekabrında və bu ilin yanvarında Lerik rayonunda baş verən güclü küləklər rayonun enerji təsərrüfatına ciddi zərər vurdu. Güclü külək nəticəsində rayonun onlarla kəndi bir neçə gün işıqsız qaldı. Külək nəticəsində rayonun Dırığ ərazisi sayılan Şinqədulan xəttində 4 dayaq aşdığından, bu istiqamətdə olan 40-dan çox kənd işıqsız qaldı. Xüsusən də hündür ərazilərdə yerləşən işıq dirəkləri küləyin gücünə dözməyərək aşaraq sıradan çıxıb. İşıq dirəklərinin bir çoxunun ağacdan olması səbəbindən enerji təsərrüfatına daha çox ziyan dəyib.**




Bu arada qəzetimizə daxil olan şikayətdən bəlli oldu ki, aşan elektrik dirəklərinin heç də hamısı bu günə qədər bərpa edilməyib. Bu barədə "Bakı-Xəbər"ə açıqlama verən rayonun Ordahal kənd sakini İsfəndiyar Məmmədovun sözlərinə görə, külək zamanı yıxılan işıq dirəklərinin bəziləri, ümumiyyətlə, ya bərpa olunmayıb, ya da alayarımçıq bərpa edilib: "Bu ilin yanvar ayında baş verən külək çox güclü olduğundan, çoxsaylı işıq dirəyi yıxıldı. Nəticədə bir sıra kəndlərin, o cümlədən, Kuman, Aran, Boykəndil, Kirəvud, Lələdulan, Ordahal, Musavar kəndlərinin elektrik xətlərinə ciddi ziyan dəydi. Günlərlə işıqsız qaldıq. Ancaq elektrik dirəklərinin bərpası alayarımçıq oldu. Yamaq formasında bir sıra elektrik dirəklərini bərpa etdilər ki, o da etibarlı deyil. Ən başlıca problem ondan ibarətdir ki, dirəklərin heç də hamısı bərpa edilmədi. Hansı evdə yaşayış yoxdursa, həmin evlərin qarşısında yıxılan elektrik dirəkləri bərpa olunmayıb. Hansı ki, yayda gəlib dincəlmək istəyənlər olur. İndinin özündə də Kuman, Aran, Ordahal və digər kəndlərdə aşan elektrik dirəkləri var ki, hələ bərpa olunmayıb. Dəfələrlə şikayət etmişik, amma məhəl qoyan yoxdur. Növbəti dəfə külək olsa, o zaman işıq dirəkləri daha çox aşacaq. Ümumiyyətlə, buna əhəmiyyət verən yoxdur. Əslində, işıq dirəkləri betondan olsa, o zaman külək onları aşıra bilməz. Bu dövrdə ağacdan işıq dirəyi olar?! Hansı əsrdə yaşayırıq?".

### "Hansı evdə yaşayış yoxdursa, həmin evlərin qarşısında yıxılan elektrik dirəkləri bərpa olunmayıb"

Külək nəticəsində aşan bəzi elektrik xətlərinin nəyə görə bərpa edilməməsi ilə əlaqədar gün ərzində bir neçə dəfə Lerik Rayon Enerji Şəbəkəsi ilə əlaqə saxlasaq da, buna aydınlıq gətirən olmadı.

*Vidadi ORDAHALLI*

№ 158 (4056) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

7-9 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Ayın arxa tərəfində qəribə material tapıldı



**Çinlilər ayın arxa tərəfində qəribə bir material tapıblar. "Ölkə.az" bildirir ki, Çində Rover "Yuytu-2" ayın arxa tərəfində bilinməyən bir material aşkar ediblər.**

Bu, kraterlərdən birinin araşdırması zamanı qeydə alınıb. Missiyanın saytında fotoşəkillərin iyul ayının sonunda əldə edildiyi dəqiqləşdirilib. Maşının gövdəsində "Visible" və "Near-Infrared Spectrometer (VNİS)" spektrometri quraşdırılıb ki, bu da ondan əks olunmuş işıq üzrə materialın tərkibini müəyyən etməyə imkan verir. Alimlər tapıntının nədən ibarət olduğunu hələ başa düşə bilməyiblər və yalnız "qeyri-adi rəng" və "helobraz şəklində"olduğunu bildiriblər. 2019-cu ilin yanvar ayında Çinin "Çanye-4" aparatı ayın arxa tərəfinin fotoşəkillərini yerə çatdırıb. Peykin səthinin şəkilləri yaxın məsafədən ilk çəkilmiş şəkillər olub. Aparat Ayın geoloji quruluşu və onun qruntunun tərkibi barədə məlumat toplayacaq, həmçinin bir sıra aşağı tezlikli radionəzarətli müşahidələr aparacaq. Ayın arxa tərəfindəki mantiyanın ilkin nümunələrində alimlər aşağı kalsium və yüksək dəmir tərkibli yüksək sıxlıqlı minerallar - piroksenlər və olivinlər tapıblar. Mütəxəssislərin fikrincə, bu qayalar əvvəlcə yuxarı mantiyanın bir hissəsi olub, lakin meteoritlər səbəbindən səthə qalxıb.

## Biznesinizi "Azercell"in köməyilə daim müştərilərinizə bağlı saxlayın

**"Azercell Telekom" rəqəmsal məhsullarını genişləndirərək, korporativ müştəriləri üçün yeni "Biznesim" sosial şəbəkə paketlərini təqdim edir.**

"Azercell" "Biznesim" tarif planı və digər aylıq biznes internet paketləri daxilində üç yeni aylıq paket təqdim edir. Artıq "Azercell"in "Biznesim" sosial şəbəkə paketləri ilə sahibkarlar əsas internet paketini sərf etmədən, öz şirkətlərinin sosial media aktivliyini gücləndirə bilər. Belə ki, real zaman rejimində məhdudiyyətsiz ünsiyyət, fasiləsiz bağlantı və müştərilərə daim dəstək olmaq üçün "Biznesim Çat" paketi xüsusi olaraq işlənib hazırlanıb.




Müştərilərlə hər bir anı bölüşmək və onları məlumatlı saxlamaq üçün "Biznesim Sosial" paketi limitsiz sayda paylaşım etmək və postlarla bölüşmək imkanı yaradır.

"Biznesim Media" paketi isə bütün digər paketlərə daxil olan tətbiqlərlə həyatı daha dinamik yaşamaq üçün nəzərdə tutulub.

"Azercell"in "Biznesim" sosial şəbəkə paketləri ilə "YouTube", "Instagram", "Facebook", "WhatsApp", "LinkedIn", "Telegram" da daxil olmaqla, 12-yə qədər müxtəlif sosial media kanallarından istifadə etmək mümkündür.

Bağlantı erasında istənilən biznesin sosial mediada mövcud olması son dərəcə əhəmiyyətlidir.

Biznesin kiçik yerli mağaza və ya böyük şirkət kimi fəaliyyət göstərməsindən asılı olmayaraq - sosial media rəqəmsal marketinq strategiyasının ayrılmaz bir hissəsidir.

Sosial platformalar müştərilərlə əlaqə yaratmağa, brend haqda məlumatın geniş əhatədə yayılmasına və şirkətin satış həcminin artmasına köməklik edir.

Qeyd edək ki, hər ay dünyada üç milyarddan çox insan sosial mediadan istifadə edir və bu qaçılmaz bir trendə çevrilib.

"Biznesim Çat", "Biznesim Sosial" və "Biznesim Media" sərfəli paketlərindən faydalanmaq üçün, müvafiq olaraq, B1, B2 və B3 mətnini 2525 qısa nömrəsinə göndərmək lazımdır.

"Azercell" sahibkarlara bizneslərinin Rəqəmsal Dünyanı fəth etməsində kömək edir!

Daha ətraflı məlumat üçün aşağıdakı linkə müraciət edə bilərsiniz: https://www.azercell.com/az/corporate/mobile_communications/data_packs_business/biznesim_social/

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

2004-cü ildə təsis edilmiş "G.E.F." MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Hüseynzadə Yusif Şöhrət oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Umarov Teymur Xəlil oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 299 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Pirməmmədov Tofiq Rəcəb oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 1031 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Abbaszadə Faiq Samir oğluna Qərbi Kaspi Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Kamalov Aydın Xanməmməd oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Leyla Məmmədbəyov küçəsi, ev15, mənzil 36 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəsimi rayonu, 20 Yanvar küçəsi 23 "b" ünvanının sahibi Seymur Fəhrad oğlu Aslanovun adına №008011002179-05301-083004 çıxarış itdiyi üçün etibarsız sayılır.

Cəfərova Gülbuta Daşdəniz qızının adına, Abşeron rayonu, Qobu qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (reyestr 308013067155) və torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-1278 A kod 30800076) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Mənfi tendensiyaların təsiri həyatın bütün sahələrində hiss olunacaq. Fikrinizi diqqət tələb edən işlərdə cəmləşdirmək çətindir. Bu üzdən nəsə vacib bir şeyi diqqətdən yayındıra, səhvlərə yoll verə bilərsiniz.



**Buğa** - Yaradıcılıq potensialı və özünüzə inam yüksəkdir. Sizin üçün qeyri-mümkün heç nə yoxdur. Cəsur planlar qurmaqdan qorxmayın, başqalarının bacarmadığı işlərə cəsarətlə girişin.



**Əkizlər** - Ev qayğıları günüdür. O qədər də məhsuldar deyil, bununla belə, xoşdur. Xırda işlərlə məşğul olacaq, onları sona çatdırmaqdan zövq alacaqsınız. Qadınlarla, xüsusilə, yaşlı qohumlarınızla ünsiyyət üçün əlverişli gündür.



**Xərçəng** - Asan gün deyil. Özünüzü sərt, demək olar ki, aqressiv aparırsınız. Sizinlə iş görmək çətindir. Bir çox Xərçənglər düşünülməmiş hərəkətlərə yol verəcək və yəqin ki, sonra buna görə peşman olacaqlar.



**Şir** - Təəssüf ki, bu gün mənfi tendensiyaların təsiri güclü olacaq. Siz yeni təəssüratlar və müsbət emosiyalar təşnəsindəsiniz. Yaxınlarınız sizə gözlədiyiniz diqqəti göstərməyəcəklər. Buna çox əsəbiləşəcəksiniz.



**Qız** - Çətin və dolaşıq işlərə girişməyə dəyməz. Ən yaxşısı, sadə və aydın işlərlə kifayətlənməkdir. Gücünüzdən yeni sahədə istifadə etmək, riskə getmək üçün münasib gün deyil.



**Tərəzi** - Sakitliyi qorumaq çətindir. Tərəzilər emosiya ilə hərəkət edəcək, xeyli artıq şey danışacaq, sonradan peşman olacaqları hərəkətlərə yol verəcəklər. Yaxınlarla münasibətlər korlanacaq.



**Əqrəb** - Çətin, amma məhsuldar gündür. Siz məqsədə çatmaq üçün səy göstərməyə hazırsınız və əməyiniz hədər getməyəcək. Təşəbbüs göstərmək, ideya və planları bölüşmək, birbaşa və açıq danışmaq olar.



**Oxatan** - Xırda xoşagəlməzliklər, əhəmyyətsiz, amma çoxsaylı çətinliklər günüdür. Ətrafdakılar sizə pis heç nə etməyəcəklər. Amma inciməyə, hətta, kin saxlamağa bəhanə tapacaqsınız.



**Oğlaq** - Günü əlverişli hesab etmək olmaz. Amma ilk baxışdan göründüyü qədər də pis deyil. Yaxınlarınızla yaranan fikir ayrılıqlarına sakit yanaşın, diskussiyaları konstruktiv məcrada aparın.



**Dolça** - Bu gün əvvəlki ilə müqayisədə daha əlverişli və asandır. Siz işlərin öhdəsindən asanlıqla gələcək, qeyri-standart qərarlar qəbul edəcək və aldığınız informasiyadan düzgün istifadə edəcəksiniz.



**Balıqlar** - Bu gün əlverişsiz tendensiyaların təsiri güclü olacaq. Amma məyus olmayın. Nə baş verməsindən asılı olmayaraq, vəziyyəti nəzarət altına almaq gücündəsiniz. Maliyyə məsələləri ehtiyat tələb edir.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Ən çox göydələni olan ölkələr...

**"Skaysrapercenter" şirkətinin dünyada ən çox göydələni olan ölkələrə həsr olunmuş araşdırmasının nəticələrinə əsasən Birləşmiş Ərəb Əmirlikləri göydələnlərin sayına görə ilk beşliyə daxil olub.**

BƏƏ-nin Dubay şəhəri 464 göydələni ilə 5-ci yeri tutub. "AZƏRTAC" bildirir ki, araşdırma nəticəsində ilk sırada ABŞ-ın Nyu-York şəhəri yer alıb və bu şəhərdə 1548 göydələn var. İkinci sırada Çinin xüsusi inzibati bölgəsi Honkonq şəhəridir. Orada göydələnlərin sayı 922-dir. ABŞ-ın daha bir şəhəri - Çikaqo 566 göydələni ilə 3-cü sırada yer alıb. Kanadanın Toronto şəhərində isə 529 göydələn qeydə alınıb və bu şəhər siyahıda 4-cü sıranı tutub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.